www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 iyul 2018-ci il Çərşənbə axşamı № 141 (7030) Qiyməti 60 qəpik

Xəbər

## Şəkidə hakimi qonşusu küt alətlə öldürdü

yazısı səh.2-də

Gündəm

## Azərbaycanın ən böyük su anbarları təhlükədə - alimdən SOS



Mingəçevir, Ceyranbatan, Şəmkir, Varvarada ciddi problemlər var; **alim İbrahim Quliyev:** "Baş verə biləcək qəza böyük sayda insan itkisi və dağıntıya səbəb ola bilər"

yazısı səh.6-da

## Azərbaycan polisinin 100 yaşı qeyd olundu

yazısı səh.3-də

## Düşmən təxribatlarına cavab: ölüm saçan sistemlər poliqonlara çıxarıldı

yazısı səh.11-də

## Fazil Məmmədov müalicə olunduğu "American Hastanesi"dən Azərbaycana qaytarılır

yazısı səh.5-də

## Rusiyalı ekspertlərin "5 rayon" söhbəti - Azərbaycanda nə düşünürlər...

yazısı səh.4-də

## Həbsxanadan qaçış planları: vertolyotla, iplə, qatarla qaçan məhbuslar

yazısı səh.10-da

## Türkiyə Amerikanı ikiyə "böldü"

yazısı səh.12-də

## Qida təhlükəsizliyi sahibkarlar üçün təhlükəyə çevrilə bilər - iddia

yazısı səh.10-da

## İraq Suriya ilə sərhəddə xəndək qazır, məftil hasar çəkir

yazısı səh.12-də

## Şəmkirdə dəhşətli avtoqəza - 2 yaşlı uşaq öldü

yazısı səh.2-də

## Suda boğulan adamı necə xilas etməli...

yazısı səh.13-də

# PUTİNİN LƏLƏTƏPƏDƏN VERDİYİ MESAJ HƏDƏFƏ ÇATDI: İRƏVANDA HƏYƏCAN

"Kremlin bizə qarşı planı var, Ermənistan hakimiyyətini müharibə ilə hədələyir"- erməni KİV-indən SOS; **Rusiyanın nüfuzlu nəşri də Çocuq Mərcanlı konfransından yazdı:** "Paşinyanı və komandasını "tərbiyələndirmək" üçün..."



yazısı səh.8-də

# "Azəriqaz" rəhbərinə bir gündə iki zərbə

Əkbər Hacıyev vurulur - AMEA-nın vitse-prezidentindən ilginc açıqlama; "Məişət qazının tərkibində müvafiq normativ sənədlərin tələblərinə uyğun olmayan, yanmayan qaz qarışıqları, eləcə də ağır karbohidrogen qatışıqları var"

yazısı səh.6-da



Ayseba Umudlu

## «Əl Cəzirə»nin azərbaycanlı xanım əməkdaşı "Yeni Müsavat"a danışdı

yazısı səh.7-də



## Ziya Məmmədova məxsus daha bir mülkdə yanğın

yazısı səh.5-də



*Vüqar Bayramov:*

## "İranın qarışması Azərbaycanın maraqlarına cavab vermir"

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 141 (7030) 3 iyul 2018



# Prezident Bakıda yol tikintisinə 7,1 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 6-18-ci kilometrlik hissəsinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 6-18-ci kilometrlik hissəsinin yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 7,1 milyon manat Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

# Vergilər Nazirliyi uçot-qeydiyyat sistemində yeniliklər tətbiq edəcək

**Vergilər Nazirliyində həyata keçirilən digər struktur dəyişikliyi qeydiyyat sahəsi ilə bağlıdır. Nazirlikdən "APA-Economics"ə verilən məlumata görə, sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı prosesi yeni yaradılan Dövlət qeydiyyatı və uçota nəzarət departamentinə həvalə edilib. Departament kommersiya hüquqi şəxslərin və fərdi sahibkarların dövlət qeydiyyatı işinin müasir tələblərə uyğunlaşdırılması, uçot-qeydiyyat məlumat bazalarının təhlili istiqamətində fəaliyyət göstərəcək.**

"Bu gün vergi orqanlarında sahibkarlıq subyektlərinin qeydiyyatı sahəsində "bir pəncərə" sistemi fəaliyyət göstərir. Hüquqi şəxslərin dövlət qeydiyyatı və vergi ödəyicilərinin uçotu sahəsində yüksək şəffaflıq göstəricisi mövcuddur. Bununla yanaşı, dünyada uçot-qeydiyyat sistemində bir çox yeniliklər tətbiq olunmaqdadır ki, Vergilər Nazirliyi bu sahədə mütərəqqi yenilikləri ölkəmizin milli vergi sistemində tətbiq edəcək. Bu gün ən mühüm məsələlərdən biri sahibkarlıq subyektlərinin qeydiyyatdan sonrakı prosesdə uçot baza məlumatların dürüstləşdirməsi ilə bağlıdır", deyə məlumatda qeyd olunub.

**Sənədlərlə iş və vətəndaş müraciətlərinə baxılması departamentinin (Katiblik) baş direktoru Nigar Alimova bildirib ki, vergi ödəyicilərin düzgün uçot məlumatları mühüm əhəmiyyət daşıyır:** "Vergilər Nazirliyi həm daxildə strukturlararası, həm də digər dövlət orqanları ilə düzgün uçot məlumatlarının verilməsi kimi mühüm vəzifəni həyata keçirir. Yeni yaradılmış struktur dövlət qeydiyyatı sahəsində mövcud olan işin keyfiyyətini artırılması, mütərəqqi yeniliklərin ölkəyə gətirilməsi, uçot-qeydiyyat məlumat bazalarının dürüstləşdirilməsi istiqamətində fəaliyyət göstərəcək".

Qeyd edək ki, vergi sistemində aparılan struktur islahatlarının əsas məqsədi vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, vergi inzibatçılığının əlverişli biznes mühitinin formalaşdırılmasına yönəldilməsi, korrupsiya və digər neqativ hallarla mübarizə sahəsində fəaliyyətin gücləndirilməsidir.




# Şəmkirdə dəhşətli avtoqəza - 2 yaşlı uşaq öldü

**Bakı-Qazax magistral yolunda ölümlə nəticələnən yol qəzası baş verib. ARB TV xəbər verir ki, hadisə yolun Şəmkir rayonu ərazisindən keçən hissəsində olub. Hərəkətdə olan "Opel" markalı avtomobilin idarəetmədən çıxaraq yolun kənarına aşması nəticəsində 2 yaşlı Nuray Məmmədova hadisə yerində ölüb, 3 nəfər isə xəsarət alaraq xəstəxanaya yerləşdirilib.**

Yaralılar 41 yaşlı Cavid Məmmədov, onun həyat yoldaşı 33 yaşlı Aidə Kərimova və qayınanası 57 yaşlı Dizbəz Kərimovadır. Ölən azyaşlı yaralı Cavid Məmmədovun övladıdır. Onun digər övladı olan azyaşlı uşaq və qaynı olan sürücü isə qəzadan xəsarətsiz ötüşüblər.

İlkin məlumata görə, qəzaya avtomobilin şininin partlaması səbəb olub.

# "Avropaya qaz nəqli üçün Azərbaycan hökuməti ilə əməkdaşlığımızı davam etdirəcəyik - BP Azərbaycan

**"2018-ci ildə Türkiyəyə kommersiya məqsədli ilk qaz həcmlərinin nəqli layihənin başlanğıcında vəd edilən mühüm hədəfdir".**



"APA-Economics" xəbər verir ki, bunu BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Conz deyib.

"Regional hökumətlər və "Şahdəniz" konsorsiumundakı tərəfdaşlarımızla birlikdə işləyərək, biz bu hədəfə təhlükəsiz, vaxtında və büdcə çərçivəsində çatmışıq. Bu, bizim yüksək keyfiyyətli layihələri uğurla birgə həyata keçirə bildiyimizi göstərir. Operator olaraq BP məmnundur ki, Azərbaycanda və bütün regionda uzunmüddətli tərəfdaşlığımız bu dünya miqyaslı layihəni uğurla həyata keçirmək və Türkiyədəki istehlakçılar qarşısında öhdəliklərimizi yerinə yetirmək üçün imkan yaradıb. Biz bu müstəsna nailiyyətimizin davamını gətirərək növbəti hədəfimizə - 2020-ci ildə Avropaya qaz nəqlinə nail olmaq üçün Azərbaycan hökuməti, SOCAR və digər tərəfdaşlarımızla sıx əməkdaşlığımızı davam etdirəcəyik," - deyə Q. Conz bildirib.

# İlahiyyat İnstitutuna qəbul qaydaları açıqlanıb

**İlahiyyat İnstitutuna qəbul qaydaları açıqlanıb. İnstitutun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, 2018-2019-cu tədris ili üçün ilk dəfə tələbə qəbulu həyata keçiriləcək.**

İnstituta tələbə qəbulu Dövlət İmtahan Mərkəzinin xətti ilə III ixtisas qrupu üzrə iki istiqamətdə - islamşünaslıq və dinşünaslıq ixtisasları üzrə aparılacaq.

İlk tədris ili üçün ödənişsiz əsaslarla islamşünaslıq ixtisası üzrə 35, dinşünaslıq ixtisası üzrə isə 25 nəfər olmaqla cəmi 60 nəfər abituriyentin qəbulu nəzərdə tutulub. Həm islamşünaslıq, həm də dinşünaslıq ixtisasları üzrə minimum keçid balı 200 bal müəyyən edilib. Dinşünaslıq ixtisası üzrə məzun olanların işlə təmin olunması üçün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və ölkədəki elmi-pedaqoji müəssisələrin, İslamşünaslıq ixtisası üzrə məzun olanların isə Qafqaz Müsəlmanları İdarəsinin sərəncamına verilməsi nəzərdə tutulub.

Yüksək ixtisaslı islamşünas mütəxəssislərin hazırlanması üçün nəzərdə tutulan İslamşünaslıq ixtisası üzrə təhsil almaq istəyən abituriyentlərin test imtahanı ilə yanaşı, dünyagörüşü səviyyəsinin və bu sahəyə maraqlarının müəyyənləşdirilməsi məqsədilə yaradılmış Psixoloji Komissiyada müsahibədən keçəcəkləri bildirilib.

Müsahibədə iştirak etmək istəyən abituriyentlər Dövlət İmtahan Mərkəzinin saytında qeydiyyatdan keçməlidirlər. İlkin qeydiyyat 29-31 iyulda, boş qalan yerlərə qeydiyyat isə 15, 16 avqust tarixlərində aparılacaqdır. İlk imtahan 1-6 avqust, boş qalan yerlərə imtahan isə 17-20 avqustda saat 09:00-dan başlayaraq Bakı şəhəri Əhməd Cəmil 41a ünvanında-Bakı Dövlət Universitetinin keçmiş İlahiyyat fakültəsinin inzibati binasında keçiriləcək. Peşəkar və təcrübəli mütəxəssislərin cəlb olunduğu Azərbaycan İlahiyyat İnstitutunda tədris prosesi ilahiyyat təhsilin müasir standartları səviyyəsində təşkil olunacaq.

Azərbaycan İlahiyyat İnstitutu 2-6 iyul tarixləri arasında abituriyentlər və valideynlər üçün açıq qapı günləri elan edib.

Məlumat üçün bildiririk ki, İnstituta qəbulla bağlı qaynar xətt yaradılıb: (+99412) 510 65 45 (daxili:123)



# Havanın temperaturu bəzi yerlərdə 46 dərəcəyə çatacaq - xəbərdarlıq

**İyulun 3-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli olacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 25-27, gündüz 40-43, Bakıda gecə 25-27, gündüz 40-42 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu təşkil edəcək, nisbi rütubət gecə 50-60, gündüz 25-35 faiz təşkil edəcək.

İyulun 3-də şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) dəniz suyunun temperaturu 28-29, cənub çimərliklərində isə (Türkan, Hövsan, Sahil, Şıx) 29-30 dərəcə isti təşkil edəcək.

Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Anomal isti hava şəraiti ilə bağlı günorta saatlarında 11:00-17:00-dək günəş şüalarının birbaşa təsiri altında uzun müddət olmaq risklidir.

İyulun 3-də Azərbaycanın rayonlarında hava şəraitinin günəşli olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-27, gündüz 40-44, bəzi yerlərdə 46, dağlarda gecə 16-21, gündüz 28-33 dərəcə isti olacağı gözlənilir.

İyulun 3-4-də Abşeron yarımadasında isti hava dalğası ilə bağlı qızmar temperatur diskomforta əksər əhali üçün əlverişsiz, meteohəssas insanlar üçün risklidir.

Bu barədə APA-ya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən məlumat verilib.

Bildirilib ki, gündüz saatlarında uzun müddət açıq havada olmaq məsləhət görülmür.



# Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri başlayıb

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən iyulun 2-də Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı təlimləri başlayıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, təlimlərə 20.000 nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dən artıq müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 30-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub.

İyulun 6-dək davam edəcək təlimlərdə döyüş əməliyyatlarının aparılmasının müasir təcrübəsi nəzərə alınmaqla qoşunlar müxtəlif növ qoşun əməliyyatlarının keçirilməsi, o cümlədən şərti düşmənə yüksək dəqiqlikli silah sistemlərinin etibarlı raket, artilleriya, bomba-hücum, eləcə də aviasiya və pilotsuz uçuş aparatları (PUA) ilə atəş zərbələrinin endirilməsi, həmçinin genişmiqyaslı hücum əməliyyatının keçirilməsi ilə işğal edilmiş ərazilərin azad edilməsi üzrə tapşırıqları yerinə yetirəcək.

# Şəkidə həkimi qonşusu küt alətlə öldürdü

**Daxili İşlər Nazirliyi Şəkidə təcili tibbi yardım stansiyasının həkiminin ölümü ilə bağlı məlumat yayıb.**

APA-nın DİN-in saytına istinadən verdiyi məlumata görə, iyunun 30-da Şəki rayon mərkəzi xəstəxanasından daxil olmuş məlumatda şəhər sakini Ələsgər Teymurovun həkim işlədiyi təcili tibbi yardım stansiyasının həyətində ölməsi və baş nahiyəsində xəsarətin olması bildirilib.

Polis və prokurorluq orqanları əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Ə.Teymurovun həmin gün yaşadığı evin qarşısında qonşusu Şahin Mirzəyevlə mübahisə etməsi və bu zaman Ş.Mirzəyevin onun baş nahiyəsinə küt alətlə xəsarət yetirməsi müəyyən edilib.

Görülmüş tədbirlərlə Ş.Mirzəyev saxlanılıb.

YENİ MÜSAVAT
N 141 (7030) 3 iyul 2018

# Azərbaycan polisinin 100 yaşı qeyd olundu

## Prezident İlham Əliyev: "Polis güclü nizam-intizama, yüksək peşəkarlığa malikdir"

## Nazir Ramil Usubov: "Cinayətlərin orta hesabla açılması 87 faiz təşkil edir"

**İyulun 2-də Azərbaycan polisinin yaranmasının 100 illiyi qeyd olundu. Azərbaycanda polis orqanları 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə yaradılıb. Müstəqillik illərində isə mərhum prezident Heydər Əliyevin 1998-ci il 24 may tarixli fərmanı ilə hər il iyulun 2-si Azərbaycanda Polis Günü kimi qeyd olunur.**

Bu münasibətlə ilk olaraq daxili işlər naziri, general-polkovnik Ramil Usubovun rəhbərliyi ilə Daxili İşlər Nazirliyinin (DİN) kollegiya üzvləri, baş idarə, idarə və xidmət rəisləri, məsul əməkdaşları Fəxri Xiyabana gedərək mərhum prezident Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb. Sonra DİN-in təmsilçiləri respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanına gedərək "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Daha sonra DİN-in Polis Akademiyasında Azərbaycan polisinin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.

Mərasimdə prezidentin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov ölkə başçısı İlham Əliyevin polisə təbrik məktubunu da oxuyub. Məktubda prezident Azərbaycan polisini yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edib. **Təbrikdə deyilir:** "Hörmətli polis əməkdaşları və veteranları! Sizi Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edirəm. Bu tarix yalnız ölkəmizin daxili işlər orqanları üçün deyil, bütünlükdə müstəqil Azərbaycan dövləti üçün əlamətdar hadisədir. 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə ilk polis orqanları yaradılıb və bununla da Azərbaycan polisinin əsası qoyulub.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbər seçildikdən sonra Daxili İşlər Nazirliyi əməkdaşlarının vətənpərvərlik ruhunda təlim-tərbiyəsinə və peşəkarlığının artırılmasına xüsusi önəm verib. 1991-ci ildə yenidən dövlət müstəqilliyini bərpa etmiş respublikamızda baş verən dağıdıcı proseslər, yaranmış hakimiyyət böhranı və idarəolunmaz vəziyyət dövlətçiliyin əsas sütunlarından olan polis orqanlarına da mənfi təsir göstərmişdi. Ölkədə cinayətkarlıq kəskin şəkildə artmış, kriminogen durum nəzarətdən çıxmışdı. Yalnız 1993-cü il iyunun 15-də xalqın təkidi ilə ümummilli lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyə qayıtması dövlətçiliyimizi uçurumdan xilas edib. Ulu Öndərin rəhbərliyi ilə ölkədə ictimai-siyasi sabitlik təmin edildi, daxili işlər orqanlarının fəaliyyətində əsaslı dönüş yaradıldı və onun sıraları dövlətinə və xalqına sədaqətli şəxsi heyətlə komplektləşdirildi.

Bu gün Heydər Əliyev siyasəti uğurla davam etdirilir. Ulu Öndərin qoyduğu təməllər üzərində güclü dövlət qurulmuşdur. Ölkəmizdə siyasi sabitlik, əmin-amanlıq hökm sürür, qanunun aliliyi təmin edilir, insan hüquqları ədalətli şəkildə qorunur. Hazırda Azərbaycan polisi güclü nizam-intizama, yüksək peşəkarlığa malik, müasir maddi-texniki imkanlarla təchiz edilmiş, dövlətçiliyimizin qorunması işində önəmli xidmətləri olan mühüm dövlət təsisatıdır. Dövlət tərəfindən daxili işlər orqanları əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daim kompleks tədbirlər həyata keçirilir və bu sahədə dövlət qayğısı gələcəkdə də davam etdiriləcək. Öz növbəsində, Azərbaycan polisi fəaliyyətini müasir tələblərə uyğun təkmilləşdirməli, cinayətkarlığa qarşı mübarizəni daha böyük əzmlə və qətiyyətlə aparmalıdır. Əminəm ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da vəzifələrini şərəflə yerinə yetirəcək. Sizi bir daha əlamətdar yubiley münasibətilə təbrik edir, dövlətimiz və cəmiyyətimiz üçün önəmli fəaliyyətinizdə yeni uğurlar arzulayıram".




"Azərbaycanda il ərzində 2 mindən çox cinayətin üstü açılır". APA-nın xəbərinə görə, bunu Azərbaycan polisinin 100 illik yubileyi və 2 iyul - Polis Günü münasibətilə keçirilən mərasimdə daxili işlər naziri Ramil Usubov deyib. Nazir bildirib ki, həyata keçirilən tədbirlər nəticəsində insan hüquq və azadlıqlarının pozulması, korrupsiyaya şərait yaradan və digər neqativ halların sayı nəzərə çarpacaq dərəcədə aşağı düşüb.

R.Usubov qeyd edib ki, son 15 ildə Azərbaycanda hər 100 min nəfərə ümumi cinayətlərin sayı, eləcə də qəsdən sağlamlığa ağır zərərvurma, oğurluq, xuliqanlıqların sayı əksər Avropa ölkələri ilə müqayisədə az, bəzi hallarda isə dəfələrlə azdır. Nazirin sözlərinə görə, son 15 ildə 48 mindən çox axtarışda olan şəxs məhkəmə-istintaq orqanlarına təhvil verilib. R. Usubov cinayətlərin orta hesabla açılmasının 87 faiz təşkil etdiyini vurğulayıb: "Qeydə alınan cinayətlərin təxminən 88 faizi heç bir ağır təhlükə törətməyən və az ağır cinayətlərdir".







### Baş redaktor: "Polis bizim həm hüquqlarımızı, həm cinayətkarlardan qoruyur"

**"Yeni Müsavat"a danışan "Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov bildirib ki, Azərbaycan polisi də çox şərəfli inkişaf dövrü keçib:** "Biz hər zaman polisə ehtiyac duyuruq. Doğrudur, bəzən haradansa müəyyən mənada qanundan yan keçməyə daha meylliyik. Bəzən polis qanunun gücünü bizə tətbiq etdiyi zaman xoşumuza gəlmir. Ancaq bütövlükdə həyatımızın ən ağır, ən təhlükəli anlarında müraciət etdiyimiz ünvan polis olur. Polis bizim həm hüquqlarımızın müdafiəçisidir, həm bizi cinayətkarlardan qoruyan bir qurumdur, həm də polis asayişi qoruyub saxlayandır. Azərbaycanda hazırkı sabitliyin qorunub-saxlanmasında polisimizin çox böyük rolu var. Polis öz borcunu zaman-zaman həmişə şərəf və fədakarlıqla yerinə yetirib. Bilirsiniz ki, ilk dəfə torpaqlarımıza qəsd olunan zaman məhz polis bizim dadımıza çatıb. Xüsusi təyinatlı polis dəstələri yaradıldı, hər kənddə polis postları quruldu. O dövrdə polislərimiz mərdliklə düşmənin qarşısına çıxıb, torpaqlarımızın müdafiəsinə qalxırdılar. Heç də təsadüfi deyil ki, bizim milli qəhrəmanlarımızın bir çoxu məhz polislər olub. Bu gün isə hər birimiz çox böyük sevinclə polisin yubileyini qeyd edirik. Çünki bu, bizim asayişimizin, sabitliyimizin, hüquqlarımızın qoruyucusu olan çox mühüm bir dövlət qurumunun yubileyidir. Azərbaycan polisini təbrik edir, onlara cansağlığı arzu edirəm".

### Deputat: "Ramin Usubov məktəb yarada bilib"

**Deputat Fərəc Quliyev isə "Yeni Müsavat"a bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə bütün dövlət qurumlarımız olub:** "Müstəqillik qazandıqdan sonra isə həm parlamentdə "Polis haqqında" Qanunun qəbul olunması, həm yenidən strukturların formalaşması və milli dəyərləri nəzərə almaqla bütün dəyişikliklər edildikdən sonra milli polis sistemimiz fəaliyyətə başlayıb. Müstəqil olduqdan bu günə qədər əlbəttə ki, polis sistemimizdə xeyli inkişaf var. Kəsirlərimiz də təbii ki, olub. Ancaq bütün bunlar aradan qaldırılıb, yeni yanaşmalar ortaya qoyulub. Azərbaycanda artıq polisimizlə fəxr etməyə dəyər. Daxili işlər naziri Ramin Usubovu da təbrik edirəm. Çünki o, bir məktəb yarada bilib. Kimin nə deməsindən asılı olmayaraq, bu sahə çox ağırdır və idarəsi də çətindir. Nəzərə alsaq ki, Eldar Mahmudovun dövründə ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi ölkənin təhlükəsizliyi ilə deyil, başqa məsələlərlə məşğul olurmuş. Deməli, elə o dövrdə də ölkənin təhlükəsizliyi polisin üzərinə düşürmüş. Qarabağ müharibəsi ərəfəsində polislərimiz həm də vətən uğrunda döyüşüblər. Düşünürəm ki, polisimiz hər zaman xalqın güvən yeri olacaq".

❑ Əli RAİS,
"Yeni Müsavat"

## Gecə-gündüz keşikdə - Azərbaycan polisinin 100 illiyinə təbrik əvəzi

**Azərbaycan polisinin 100 illiyidir. Düz 100 il öncə 2 iyun 1918-ci ildə müstəqil Azərbaycan dövləti öz polis qüvvələrini təsis edib və Azərbaycan Xalq Cümhuriyyəti süqut edənə qədər ölkəməzin polis zabitləri və sıravi əməkdaşları vətənə, millətə şərəflə xidmət ediblər.**

Sovet dövründə polisin adı dəyişdirilib milis adlandırılsa da, fəaliyyət istiqaməti müəyyən qədər dəyişdirilsə də, xüsusilə də II Dünya müharibəsindən sonra Azərbaycan milisinin ictimai asayişin qorunmasında, zaman-zaman ağırlaşan kriminogen durumda cəmiyyətin təhlükəsizliyinin təmin edilməsində, xalqın malına, canına zərər yetirən kriminal ünsürlərin axtarılıb tapılmasında böyük xidmətləri oldu.



O zamanlar "Mənim milisim məni qoruyur" ifadəsi boş yerdən yaranmamışdı. Prinsipcə, sovet dövrünün milisi sovet ideologiyasına xidmət göstərsə də, onun başlıca vəzifəsi xalqın asayişinin keşiyində durmaq idi və Azərbaycan milisi bunun öhdəsindən gəlirdi.

Ona görə də 30-50 il bundan əvvəl milis sistemində fəaliyyət göstərən parlaq kadrlar bu gün də xatırlanır, gənc polislərə nümunə göstərilir.

Dövlət müstəqilliyimiz bərpa olunandan sonra Azərbaycan polisi iki cəbhədə vuruşmalı oldu. O, həm iri şəhərlərdə güclənməkdə, rişələnməkdə olan kriminal təşkilatların üzvlərinə qarşı mətanətlə vuruşurdu, həm də cəbhə bölgələrində, təmas xəttində erməni silahlıları ilə ölüm-dirim savaşına qatılırdı.

Bu gün müharibə veteranları və qəhrəmanları arasında xeyli sayda polis əməkdaşının olması bu üzdəndir. Şəhid və qazi polislərimiz də çoxdur.

İstənilən ölkədə polis qüvvələri cəmiyyətin asayişinin baş keşikçisidir. Bu, ağır və təhlükəli işdir. İnsanların gecələr evlərində rahat yatmaları, gündüzlər şəhərdə, qəsəbədə rahat gəzmələri üçün məhz polislər gecə-gündüz növbədə, keşikdədirlər.

"Yeni Müsavat" Media Qrupunun kollektivi Azərbaycan polisinin 100 illiyi münasibətilə nazir Ramil Usubov başda olmaqla, Daxili İşlər Nazirliyinin rəhbərliyini, şəxsi heyətini təbrik edir, onlara zəhmət dolu fəaliyyətlərində uğurlar arzulayır.

❑ Musavat.com

**İyulun 1-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində keçirilmiş "Bakı və Moskva arasında geopolitik ox: Azərbaycan Rusiyanın Cənubi Qafqazda yeganə müttəfiqidir" mövzusunda konfransın iştirakçıları cəbhə xəttində strateji Lələtəpə yüksəkliyini ziyarət ediblər.**

# Cocuq Mərcanlı səfərinin siyasi açması

## Fazil Mustafa: "Bu, yalnız Ermənistana mesaj göndərmək deyil..."

Konfransda iştirak edən **deputat Fazil Mustafa** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan cəmiyyətində Rusiya ilə bağlı daha çox qabarıq görünən iki xətt var: "Biri sırf rusofil xəttidir. Bu xətt Rusiyasız yaşamağın mümkün olmadığı düşüncənsindədir və bu kursu aparır. İkincisi isə antirus xəttidir. Bu xətt Rusiya ilə hər hansı şəkildə ulduzumuzun barışmasını mümkün saymır və hesab edir ki, biz Rusiyadan tamamilə aralanmasaq problemlərimiz qalacaq. Üçüncü isə nisbətən orta xətdir. Rusiyadan nümayəndə heyətinin gəlişi, keçirilən tədbirlər, yaradılan platforma əslində bu orta xəttin təqdimatıdır. Təbii ki, Rusiyanın Ermənistana yaxın müttəfiqliyi var. Amma biz Rusiya məkanından kənarda hansısa münasibətlər qurulması işində də ləngimirik. Addımlar atırıq, məsələn, Avropa ilə əlaqələr qururuq. Amma yaxın qonşu kimi Rusiyanın bölgə üzərində təsiri açıq-aşkar hamıdan daha güclüdür. Bunu biz Ukrayna kimi nəhəng dövlətin ərazisində istənilən problemi yarada bilməsində gördük. Azərbaycan Ukraynadan daha aşağı imkanlarla Rusiya ilə baş-başa gələcək gücə sahib deyil. O baxımdan da böyük qonşularla münasibətlərdə daha sağlam alternativlərin axtarılması vacibdir. Yəni müstəqilliyimizi qorumaqla, müstəqilliyimizin bütün prinsiplərinə əməl etməklə, özümüzün qoşulmama siyasətimizi davam etdirməklə yanaşı, həm də Rusiyanın bizə düşməncə tavrlar içində olmasına imkan verməməliyik, buna şanslar yaratmamalıyıq. Rusiyada da bu cür düşünən insanlar var. Azərbaycana gələn həmin şəxslərin də niyyəti budur. Yəni onlar Ermənistanla müttəfiqlikdən əl çəkmirlər, amma Azərbaycanla bağlı da dostluq münasibətlərini inkişaf etdirməyə və Azərbaycanın Rusiyanın gələcəkdə vacib strateji partnyoruna çevrilməsinə maraqlı olan qüvvələrdir".

**F.Mustafa hesab edir ki, biz bundan imtina etməməliyik:** "Yəni bizim müstəqilliyimiz üçün təhdid olmayan, narahatçılıq olmayan bir pozisiyada biz bu qüvvələrlə bu cür düşüncənin inkişafı ilə bağlı məsələlərdə öz dəstəyimizi verməliyik. O baxımdan bu prosesdə bizim də iştirakımız məhz belə bir prosesin inkişaf etdirilməsi ilə bağlı idi. Biz mesaj verməyə çalışdıq ki, rusları artıq Azərbaycan tərəfindən ermənilərə baxmağa alışdırmalıyıq. Artıq onlar Rusiya cəmiyyətini inandırmağa çalışmalıdırlar ki, Rusiyanın Ermənistanla dost olmağının faydası yoxdur, bizə faydası olan Azərbaycandır və Azərbaycan vasitəsilə türk dünyası ilə dost olmaqdır. Diqqət edirsinizsə, Türkiyə hətta NATO ölkəsi olsa da Rusiya ilə çox yaxın müttəfiqlik münasibətlərinə doğru yönəlməyə başladı. Nəticədə həm də özünün güc sahibi olmasını qorumaq üçün bu addımı atdı. Türkiyə ki, müstəqilliyindən vaz keçən ölkə deyil. Türkiyənin Rusiya ilə yaxınlaşması kontekstində bizim də bu prosesdə müəyyən bərabər rol almağımıza imkan yarana bilər. Bu, həm də Rusiyanın aqressivliyini yumşaldar. İndiyə qədər mövcud olan Qarabağ siyasətində, Minsk Qrupunun həmsədri kimi mövqelərində bir korrektələr etmə şansını da doğura bilər. Bu baxımdan nümayəndə heyətinin hərbi hissəni ziyarət eləməsi, Azərbaycan əsgəri ilə sıcaq təmaslar qurmaları və bunu açıq şəkildə etmələri səbəbsiz deyil. Bu yalnız Ermənistana mesaj göndərmək deyil, əslində Azərbaycana mesaj göndərməkdir ki, Rusiyada əhəmiyyətini anlayan qüvvələr var. Bunlar cəhdlərdir. Cəhdlər uğurlu da ola bilər, uğursuz da. Rusiyada ictimai fikri Azərbaycanın xeyrinə dəyişə biləcək bir xəttin inkişaf etməsinə özümüz də maraqlı olmalıyıq. Hesab edirəm ki, bu cür tədbirlərin, görüşlərin müsbət nəticələrini müəyyən müddətdən sonra Rusiya ictimai rəyində görə biləcəyik".



**F.Mustafa onu da dedi ki, bu cür görüşlərin, tədbirlərin təşkilatçısı və təşəbbüskarı hər iki tərəfdir:** "Biz reallıqdan çıxış edərək ölkəmizin ən vacib problemlərinin həlli istiqamətində qonşu ölkədə bir düşüncə dəyişiminə nail olmağa çalışmağı borc olaraq görürük və bu cəhdləri davam etdirmək niyyətindəyik. Bu prosesin birinci mərhələsi Moskvada keçirilən konfrans oldu. İndi burada keçirildi. Növbəti konfrans isə ola bilsin Rusiya ilə sərhəddə, Dərbənddə keçirilsin".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Rusiyalı ekspertlərin "5 rayon" söhbəti - Azərbaycanda nə düşünürlər?

## Elçin Mirzəbəyli: "Bizim üçün əsas ərazi bütövlüyümüzün təmin edilməsi olmalıdır"

## Elxan Şahinoğlu: "Kreml problemin Azərbaycanın lehinə həllini istəyirsə, niyə 2016-cı ilin aprelində bizə mane oldu?"

**Rusiyanın bir sıra ekspertlərinin və azərbaycanlı deputatların iştirakı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində "Azərbaycan - Rusiyanın Cənubi Qafqazdakı yeganə müttəfiqi" adlı konfrans keçirilib, həmçinin tədbir iştirakçıları aprel döyüşlərində işğaldan azad edilmiş yüksəkliklərdə olublar.**

Konfransın gedişində və ondan sonra rusiyalı ekspertlər kifayət qədər maraqlı açıqlamalarla çıxış ediblər ki, bu da birmənalı qarşılanmayıb. "Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurası, Avropa Şurası və Avropa Parlamentinin qərarları, nəhayət, həyata keçirilməlidir". Bunu **Rusiya Dövlət Dumasının komitə sədrinin müavini Dmitri Savelyev** konfransın yekunlarını şərh edərkən deyib.

"Rusiya və Azərbaycan qardaş və müttəfiq ölkələrdir. Biz burada birlikdə, bir yerdə, ittifaqda olmalıyıq". Bunu isə öz çıxışında hakim "Vahid Rusiya" Partiyasından Dövlət Dumasının deputatı Aleksey Yezubov bildirib. Deputatın sözlərinə görə, bütün dünya Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb: "Putin, Sərkisyan və Əliyev tərəfindən hazırlanmış yol xəritəsinə müvafiq olaraq, Ermənistan işğal edilmiş 5 rayonu Azərbaycana qaytarmalıdır. Putin bildirib ki, bu, Rusiyanın dəyişməz mövqeyidir".

**Rusiyalı ekspert, Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri Aleksadr Duqin isə təmas xəttinə səfər haqqında danışarkən belə deyib:** "Hazırda Qarabağda olmağımız təsadüfi deyil. Rusiya Qarabağı Azərbaycanın tərkib hissəsi hesab edir, bu, dünya birliyinin də mövqeyidir". **Duqin deyib ki, Qarabağdan azərbaycanlılar qovulduqdan sonra "DQR" heç vaxt legitim hesab oluna bilməz:** "Əvvəl Azərbaycan, Ermənistan və Rusiya belə qərara gəlmişdi ki, ilkin olaraq 5 rayon qeyd-şərtsiz Azərbaycana qaytarılsın. Bu, sülhə yol açardı və bu məsələdə ən yaxşı variantdır. Ermənistanın indiki hökuməti buna real yanaşaraq, razılaşmaya sadiq olmalıdır. Bu, sülhün yeganə roludur".





**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun sözlərinə görə, bizi inandırmağa çalışırlar ki, Rusiya Azərbaycanın dostu, hətta qardaşıdır:** "Hətta tarixdə Rusiya imperiyasının, ardınca SSRİ-nin və müstəqil Rusiyanın Azərbaycan torpaqlarını parça-parça necə Ermənistana ötürdüyünü, azərbaycanlıların Ermənistandan köçürülməsinə dəstək verdiklərini, nəhayət, Dağlıq Qarabağın separatçıların əlinə keçirilməsi üçün canfəşanlığını unutsaq belə, iddia edildiyi kimi, Moskvanın bu gün Azərbaycanın yanında olduğuna dəlalət edən heç bir işarət yoxdur".

**E.Şahinoğlu rusiyalı ekspertlərin fikirləri ətrafında gedən müzakirələrə də münasibət bildirdi:** "Əlbəttə, bir qrup rusiyalı ekspert var ki, Rusiyanın Azərbaycanın yanında olduğunu iddia edir, Cocuq Mərcanlıya səfər edərək Azərbaycanın lehinə açıqlamalar verirlər. Sağ olsunlar, heç olmazsa, Moskvada bizim də sözümüzü deyənlər tapılıb, içərilərində deputatlar da var. Ancaq elə onlardan biri Cocuq Mərcanlıda etirafını da dilə gətirib: "Çox təəssüf ki, Rusiya KİV-i qafqazfob və türkfob güclər tərəfindən idarə olunur". Yalnız KİV-mi? Kremldə və Rusiya Xarici İşlər Nazirliyində də güclər nisbətinin Azərbaycanın lehinə dəyişdiyini söyləmək tezdir. Rusiya prezidenti Vladimir Putinin Azərbaycana simpatiyası haqqında müxtəlif fikirlər səsləndirilir. Son 6 ayda bir neçə rusiyalı ekspertlə görüşmüşəm. Onlar da eyni fikri mənə təlqin etməyə çalışırlar. Sadəcə, mən onlara belə bir sual verdim: "Əgər Kreml sahibi problemin Azərbaycanın lehinə həllini istəyirsə, niyə 2016-cı ilin aprelində bizə mane oldu?" Bu suala konkret cavab vermədilər. Elə indinin özündə də rusiyalı rəsmilərdən bir kimsənin dilindən "Ermənistanın Dağlıq Qarabağ ətrafındakı torpaqları işğal altında saxlaması doğru deyil" fikrini eşitməmişəm. Buna baxmayaraq, bu mərkəzlərlə iş aparılmamalıdır. Bütün hallarda rusiyalı ekspertlərin və deputatların Lələtəpəyə və Cocuq Mərcanlıya gəlmələrini pozitiv qiymətləndirirəm. Amerikanları və avropalıları da həmin yerlərə gətirmək lazımdır".

**Politoloq Elçin Mirzəbəyli bildirdi ki, rusiyalı ekspertlərin, deputatların işğaldan azad edilmiş ərazilərimizə gəlmələri, orada azərbaycanlı həmkarları ilə birgə konfrans keçirmələri və ölkəmizin ərazi bütövlüyü ilə bağlı obyektiv yanaşma sərgiləmələri önəmli məsələdir:** "Amma belə tədbirləri, açıqlamaları Rusiyanın rəsmi, yaxud həlledici mövqeyi kimi təqdim etmək yanlışdır. Qədərindən artıq və bəzən ifrat dərəcədə artıq təqdim olunan, reallığı əks etdirməyən məsələ insanları ruhdan salır. Peşəkarlığı bir kənara qoyuram, Qarabağ məsələsindən reytinq və yaxud hansısa maraqlar naminə istifadə etməyin adı yoxdur. Ağır cümlələr işlətmək istəmirəm, amma əslində belə oyunbazlığın cavabı çox ağır olmalıdır".

**E.Mirzəbəyli qeyd etdi ki, Rusiyada Azərbaycanın ədalətli mövqeyini müdafiə edən ekspertlərin, deputatların olması çox vacibdir:** "Amma qiymətləndirmə də əndazəsində, mübaliğəsiz olmalıdır. Bununla yanaşı, digər tərəfi də nəzərə almaq lazımdır. Məsələn, Rusiyadakı hansısa ciddi siyasət adamı bu ölkənin sıradan bir ekspertinin sözündən sevincək olduğumuzu görəndə, problemin real həllindən daha çox "dopinq"i artırmaq barədə düşünür". **Politoloq digər bir məqama da diqqət çəkdi:** "Duqin maraqlı adamdır, yaxşı PR-çidir, ölkəsinin hətta uğursuz layihələrinə də geosiyasi don geyindirməyi bacarır. Amma biz unuduruq ki, onun mülahizələri subyektiv xarakter daşıyır və ölkəsinin Cənubi Qafqazla bağlı siyasətinə cüzi korrektə etmək gücündə də deyil. Bu arada həssas bir məqama da toxunmaq istəyirəm: Rusiya Ermənistanda baş verən proseslərdən narazıdır və təbii ki, yaranmış vəziyyətdən maksimum yararlanmağa cəhd göstərmək lazımdır. Bizim üçün əsas məqsəd ərazi bütövlüyümüzün təmin olunması olmalıdır, Rusiyanın Ermənistandakı vəziyyəti yenidən tam nəzərətə götürmək niyyətinin reallaşması yox".

**❑ E.PAŞASOY, "Yeni Müsavat"**

**Sabiq nəqliyyat naziri Ziya Məmmədova məxsus olduğu bildirilən villada yanğın meydana gəlib. Hadisə Bakıda, "Milyonerlər məhəlləsi" kimi tanınan ərazidə qeydə alınıb. "Qafqazinfo" əməkdaşı Teymur Əliyev küçəsində yerləşən villanın olduğu əraziyə gedib, orada toplaşan şahidlər yanan mülkün sabiq nəqliyyat naziri Ziya Məmmədova məxsus olduğunu deyiblər. Yanğının qarşısının alınması üçün 4 yanğınsöndürən maşın cəlb olunub.**



# Ziya Məmmədova məxsus daha bir mülkdə yanğın

## Sabiq nazirin "milyonerlər məhəlləsi"ndəki villası alovlandı; yaxınları isə "Yanan obyektin ona aidiyyəti" yoxdur deyir

Yanğının elektrik şitində başladığı və böyüyərək geniş ərazini əhatə etməsi haqda məlumatlar var. Villanın mühafizəçiləri bildirib ki, hadisə yerinə dərhal FHN-in Dövlət Yanğın Nəzarəti və Dövlət Yanğından Mühafizə xidmətlərinin əməkdaşları çağırılıb və yanğının qarşısı qısa müddətdə alınıb. Bundan əvvəl də Ziya Məmmədovun mülklərində yanğın olub. Ötən ilin fevralında İsmayıllı rayonun Buynuz kəndində Ziya Məmmədova məxsus malikanə yanmışdı. Həmin vaxt Ziya Məmmədovun yaxınları villanın ona məxsus olmadığını iddia edirdilər. Deyirdilər ki, yanan malikanə Qubaxəlilli kənd sakini, 1987-ci il təvəllüdlü Bədirov Rəsul Zöhrab oğluna məxsusdur. Həmin vaxt ümumi sahəsi 144 kvadratmetr olan 3 otaqlı evdə baş verən yanğının söndürülməsi üçün əraziyə FHN-in 2 yanğınsöndürən avtomobili və canlı qüvvəsi cəlb edilib. Hadisə zamanı ev içərisindəki əşyalara birgə tamamilə yanaraq yararsız hala düşüb. Hadisə zamanı xəsarət alan olmayıb. Belə ki, kənddə meşəlik və dağlıq ərazidə yerləşən, keçmiş nəqliyyat naziri Ziya Məmmədova məxsus böyük həyətyanı sahədə inşa edilən evlərdən biri yanıb. Yanğın Ziya Məmmədovun villasının yanında taxtadan müasir üslubda inşa edilən 3 otaqlı, bir mərtəbəli mənzildə baş vermişdi.

Villanı mühafizə edən və həmin mənzildə yaşayan İsmayıllı rayonu Qubaxəlilli kənd sakini, 1987-ci il təvəllüdlü Bədirov Rəsul Zöhrab oğlu telefonla zəng edərək yanğın barədə FHN-in İsmayıllı Dövlət Yanğından Mühafizə Hissəsinə məlumat verib. Daha sonra məlum olub ki, yanğın baş verən malikanə faktiki olaraq Ziya Məmmədova məxsusdur. Formal olaraq gözətçi Bədirov Rəsul Zöhrab oğlunun adınadır.



Ziya Məmmədovun Bakıdakı villasında yanğından sonra da sabiq nazirin yaxınlarının mövqeyi fərqli olmayıb. Ziya Məmmədovun qardaşı, eks-deputat Elton Məmmədov Bakıda "Milyonerlər məhəlləsi" kimi tanınan ərazidə yanan villanın qardaşına aid olmasını inkar edib.

O, axar.az-a "Yanan villanın Ziya Məmmədovla heç bir əlaqəsi yoxdur" - deyə bildirib.

**Keçmiş deputat qeyd edib ki, Ziya Məmmədovun həmin ərazidə, ümumiyyətlə, villası yoxdur:** "Yanan mülk də ailəmizə məxsus deyil. Mən heç kəsə arzulamazdım ki, kiminsə evi, mülkü, villası yansın. Bu artıq neçənci dəfədir ki, Ziya Məmmədovun adı bu cür olayda hallandırılır. Çox istərdim ki, media bu cür ucuz qara piara inanmasın".

FHN Böhran Vəziyyətində İdarəetmə Mərkəzindən verilən məlumatda isə Teymur Əliyev küçəsində yerləşən villaların yaxınlığındakı ərazidə mülk yox, obyektdə yanğın hadisəsi qeydə alındığı bildirilib. Məlumata görə, səhər saatlarında həmin ərazidə yanğınla bağlı zəng daxil olub və hadisə yerinə gedən yanğınsöndürənlər yanğının qarşısını alıblar. İlkin ehtimala görə, yanğına elektrik naqillərində yaranan qısaqapanma səbəb olub.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Fazil Məmmədov müalicə olunduğu "American Hastanesi"dən Azərbaycana qaytarılır



**Sabiq vergilər naziri Fazil Məmmədov səhhətində yaranmış problemlərlə bağlı Türkiyədə "American Hastanesi"də müalicəsini davam etdirir. Sabiq nazirin sağlıq durumunun yaxşılaşdığı və yaxın günlərdə yenidən Gəncədəki xəstəxanaya qaytarılacağı haqda məlumatlar var.**

Bildirilir ki, Fazil Məmmədova müalicə məqsədi ilə ölkədən 10 günlük getmək izni verilib. Hazırda sabiq nazir həmin xəstəxananın professorları Orhan Bilge və Mustafa Keremin nəzarəti altında müalicəsini davam etdirir. Fazil Məmmədovun türkiyəli həkimi Orhan Bilge onun son durumu ilə bağlı unikal.org-a açıqlama verərkən durumunun yaxşılaşdığını təsdiqləyib: "Hazırda Fazil Məmmədov xəstəxanada müalicəsini davam etdirir. O, Azərbaycanda əməliyyat olduğuna görə burada onun növbəti əməliyyat keçirməsinə ehtiyac olmadı. Azərbaycandan buraya gətirilərkən vəziyyəti çox ağır idi. Ona ilkin tibbi yardım göstərildikdən sonra vəziyyəti stabilləşməyə başlayıb. Onun nə zaman xəstəxanadan buraxılacağını deyə bilmərəm. Fazil Məmmədovun müalicəsi ən azı bir-iki ay davam edəcək. O, pankreatit xəstəliyinin ağır formasından əziyyət çəkdiyi üçün davamlı müalicə alması zəruridir".

Orhan Bilge F.Məmmədovun səhhətinin yaxşı olduğunu və narahatlığa ehtiyac olmadığını bildirib.

Fazil Məmmədov vəzifədə olduğu dönəmdə onun ağır xəstə olması haqda məlumatlar yayılmışdı. İşdən çıxarılandan sonra, bu ilin aprelində Gəncə Beynəlxalq Xəstəxanasına yerləşdirildiyi bildirilirdi. Qeyd olunurdu ki, xəstəxana Fazil Məmmədova məxsusdur, o, xəstəxanaya çatdırılmazdan əvvəl ürək-damar xəstəlikləri şöbəsində yatan xəstələr digər şöbələrə köçürülüb. Həmin günlərdə sabiq nazirin Türkiyədəki məşhur xəstəxanalardan birinə köçürülməsi üçün addımlar atılması xəbərləri də vardı. Lakin son anda sabiq nazirin ölkədən çıxışına icazə verilməmişdi. 2 ay sonra isə Fazil Məmmədovun vəziyyəti ağırlaşdığından ona 10 günlük Türkiyədə müalicə olmunmaq izni verilib. Bildirilir ki, vəzifədə olduğu müddətdə Türkiyədə, İsraildə ən bahalı xəstəxanalarda müalicə olunub.

❑ **E.HÜSEYNOV,**
**Musavat.com**

# İlqar Məmmədovun məhkəmə işində mühüm gəlişmə

## Kasasiya və apelyasiya instansiyalarının qərarları ləğv edildi; **Fuad Ağayev:** "İlqar çoxdan azadlıqda olmalı idi"

**Həbsdə olan REAL Partiyasının sədri İlqar Məmmədovun işi yenidən Şəki Apelyasiya Məhkəməsinə qaytarılıb. Bu barədə iyunun 30-da Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qərarının icrasına baxan Ali Məhkəmənin Plenumu qərar çıxarıb. Plenum kasasiya və apelyasiya instansiyalarının qərarını da ləğv edib.**



Qeyd edək ki, bundan öncə bir dəfə də Ali Məhkəmə bu tipli qərar çıxarmış, vicdan məhbusunun işi Şəki Apelyasiya Məhkəməsinə qaytarılmış, lakin məhkəmə onun barəsində əvvəlki qərarı qüvvədə saxlamışdı. İndi isə necə bir qərarın veriləcəyi suallar doğurur.

AİHM-in REAL rəhbərinin azad olunması ilə bağlı iki qərarı var. İ.Məmmədovla bağlı Azərbaycan hökumətinə verilən sonuncu vaxt iyunun 5-də bitib.

**İ.Məmmədovun vəkili Fuad Ağayev çıxarılan qərarla bağlı bunları dedi:** "Əslində İlqar çoxdan azadlıqda olmalı idi. Heç olmasa plenum səviyyəsində bu məsələ həll olunardı. İş üzrə bütün qərarlar, o cümlədən Şəki Ağır Cinayətlər Məhkəməsinin qərarı ləğv edilməli idi. Təəssüflər olsun ki, Ali Məhkəmə bunları etməyib. İlqarın qeyri-müəyyən müddətdə həbsdə qalma müddəti uzadılır. Bundan sonra onun təhlükəsizliyinin təminatı məsələlərinə də diqqət etmək lazım gələcək".

**REAL-ın icraçı katibi Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında İ.Məmmədovla bağlı Ali Məhkəmənin Plenumunun bu qərarının gözlənilən olduğunu söylədi:** "Azərbaycan hökuməti Avropa Məhkəməsinə cavab verməli idi. Bu cavab da plenumun iclası ilə verilirdi. Belə bir iclasın keçirildiyi haqqında biz sonradan xəbər tutduq. Həmin iclasda vəkili və İlqar Məmmədov iştirak etməyib. İlkin məhkəmə qərarları ləğv edilib. Bunun ləğvinin özü pozitivdir. Bu o deməkdir ki, İlqar Məmmədovun məhkum olunduğu ilkin məhkəmə qərarları səhv olub. Ali Məhkəmənin Plenumu bunu etiraf edib. Qərarın neqativ tərəfi odur ki, iş yenidən Şəki Apelyasiya Məhkəməsinə qaytarılıb. Hansı ki, o məhkəmə iki dəfə bu işə baxıb və hər iki iclasda qərarı qüvvədə saxlayıb. İki dəfə qərarı qüvvədə saxlayan məhkəmənin üçüncü dəfə fərqli qərar qəbul etməsi məntiqsiz görünür. Əslində bu amil ümidləri bir qədər azaldır. Lakin İlqar Məmmədovla bağlı qərarların siyasi olduğu heç kəsdə şübhə doğurmur. Məhkəmə deyil, siyasi qərarla onun ya azadlığa çıxacağı, ya da həbsdə qalacağı müəyyən ediləcək. Amma ən azından bizdə müəyyən ümidlər yaranıb ki, əvvəlki qərarların səhv olduğunu qəbul edib onu ləğv edən Ali Məhkəmənin Plenumunun bu qərarı Şəki Apelyasiya Məhkəməsinin səhvlərdən nəticə çıxarmasına səbəb olacaq və İlqar Məmmədov barəsində, nəhayət, ədalətli qərarın şahidi olacağıq. İlqarın azadlığa çıxmasına cəmi 1 il yarım qalır. 7 illik cəzanın böyük bir hissəsini çəkib. Şəki Məhkəməsi bunu nəzərə alıb, cəzanın çəkilmiş hissəsini qeyd edib, azadlığa buraxılma qərarı da çıxara bilər. Hər bir ehtimal, açığı, masanın üzərindədir. Hazırda İlqar Məmmədovun yenidən Şəkiyə aparılması, məhkəmənin Şəkidə keçirilməsi, onun təminatı ilə bağlı problemlərin yaşanması gündəmə gəlib. Şəkiyə tez-tez gedib gəlmək lazım gələcək. Bu da müəyyən çətinliklər yaradacaq. Ən azından ümid etmək istəyirəm ki, Ali Məhkəmənin Plenumunun bu qərarından istifadə edərək, Şəki Məhkəməsi daha ədalətli qərar verəcək, nəhayət ki, İlqar Məmmədov müəmması çözüləcək. Bu problem Azərbaycan-Avropa əlaqələrinə çox ciddi zərbə vurur. Dövlətin maraqlarına da ciddi zərbələr dəyir. Hökumət, nəhayət, anlamalıdır ki, bir şəxsə görə Avropa ilə əlaqələri qəlizləşdirmək olmaz. Ümid edirəm ki, yaxın 1-2 ayda bu məsələyə baxılacaq və pozitiv qərar veriləcək. Prosedur qaydalarına baxsaq belə bu işə baxılma müddətinin bir neçə ay uzadılması qaçılmazdır. Çünki qərarın Şəki Məhkəməsinə çatması, İlqarın 2 saylı cəzaçəkmə müəssisəsindən Şəkiyə aparılması ən azı bir ay çəkəcək. Ondan sonra işin vaxtı təyin olunacaq. İlkin baxışdan sonra məhkəmə istintaqının aparılması barədə qərar veriləcək. Hər şey verilmiş qərarın hansı yöndə olacağından asılı olacaq. Bu, yaxın bir ayda da həll oluna bilər, bir neçə ay da uzanma ehtimalı var".

Qeyd edək ki, İlqar Məmmədov 2013-cü il yanvar ayının 24-də İsmayıllıda baş vermiş kütləvi iğtişaşların təşkilində ittiham olunub. Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 7 il müddətinə azadlıqdan məhrum edilib. 2014-cü ildə Ali Məhkəmə Avropa Məhkəməsinin qərarı əsasında İlqar Məmmədovla bağlı birinci instansiyanın verdiyi qərarı ləğv edib, işi Şəki Apelyasiya Məhkəməsinə göndərib. 2017-ci ildə AŞ PA-da Azərbaycanla bağlı qəbul edilmiş iki qətnamədə İlqar Məmmədovun azad edilməsi tövsiyə edilib.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 141 (7030) 3 iyul 2018

**"Hidrotexniki qurğular həm təhlükə potensiallı, həm də strateji obyektlər siyahısına daxil olduğundan onların təhlükəsiz istismarı son dərəcə mühüm əhəmiyyət kəsb edir. Ancaq araşdırmalar zamanı hidrotexniki qurğuların əksəriyyətinin vəziyyətinin qənaətbəxş olmadığı, bəzilərinin isə təhlükəli vəziyyətdə istismar olunduğu aşkar edilib".**



# Azərbaycanın ən böyük su anbarları təhlükədə

## Mingəçevir, Ceyranbatan, Şəmkir, Varvarada ciddi problemlər var; **alim İbrahim Quliyev:** "Baş verə biləcək qəza böyük sayda insan itkisi və dağıntıya səbəb ola bilər"

"Yeni Müsavat" xəbər verir ki, bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti İbrahim Quliyev "Xalq qəzeti"ndə dərc olunan "Fövqəladə hallar atlasının hazırlanması günün tələbidir" başlıqlı məqaləsində yazıb.

Yazıda qeyd olunur ki, 1983-cü ildə istifadəyə verilmiş Şəmkir hidroqovşağının qəza sutullayıcı qurğusunun beton konstruksiyalarının dağılması nəticəsində 2003-cü ildən indiyədək sutullayıcı qurğuda sızma prosesi davam edir: "Bu səbəbdən Şəmkir su anbarının imkanlarından tam şəkildə istifadə olunmur. Qeyd edək ki, sızmanın qarşısının alınması məqsədi ilə "Azərenerji" ASC tərəfindən təmir-bərpa işləri aparılsa da, heç bir nəticə verməmişdir. Problemin bu şəkildə davam etməsi yaxın gələcəkdə bəndin torpağının yuyulmasına, onun özülünün zəifləməsinə, nəticədə bəndin dağılmasına səbəb ola bilər. Çoxsulu illərdə Şəmkir su anbarında daşqın sularını ötürmək üçün başqa qurğu mövcud deyildir. Hazırda istismara yararsız olan sutullayıcı qurğudan daşqın zamanı istifadə olunması həm Şəmkir su anbarının bəndi üçün, həm də Kür çayının aşağı axarında kaskad şəklində yerləşən Yenikənd, Mingəçevir və Varvara su anbarlarının torpaq bəndləri üçün böyük təhlükə yarada bilər ki, bu da ölkə səviyyəsində böyük fəlakətə səbəb ola bilər".

**Alimin yazdığına görə, Yuxarı Qarabağ kanalının suqəbuledicisi və tunelin başlıq hissəsi potensial sürüşmə sahəsində yerləşir. Mingəçevir su anbarının kompleksinə daxil olan və Azərbaycan İstilik Elektrik Stansiyasını texniki su ilə təmin edən tuneldə də problemlər mövcuddur:** "Qurğunun istismarı Mingəçevir su anbarına və bəndinə ciddi təsir edir, orada baş verə biləcək nasazlıq böyük fəsadlarla nəticələnəcək qəzaların yaranmasına səbəb ola bilər. Məlumdur ki, 1988, 2006-cı illərdə bu tunelin başlıq hissəsində sürüşmə baş verib. Sürüşmələrin təkrar baş verəcəyi təqdirdə tunelin su qəbuledicinin deformasiyaya uğraması nəticəsində su anbarında qısa bir zamanda su səviyyəsinin enməsi bəndin yuxarı yamacının dağılması ilə nəticələnə bilər.

Torpaq bəndin təhlükəsizliyinə nəzarət etmək üçün bəndin nüvəsi ilə birbaşa əlaqəli olan nəzarət ölçü cihazlarının (pyezometrlərin) yararsız vəziyyətdə olması onlar vasitəsi ilə dəqiq ölçü işlərinin aparılması mümkün deyil".

**Varvara su anbarı layihədə nəzərdə tutulmuş normadan artıq lillənmə nəticəsində öz funksiyasını demək olar ki, itirib:** "Torpaq bəndlərdə filtrasiyanın artması və su sızmasının normadan dəfələrlə yüksək olması bəndin dağılmasına, sutullayıcının çıxışında yuyulma nəticəsində sudöyən qurğuda beton konstruksiyaların dağılmasına və daşqınlar zamanı fəlakətli qəzanın baş verməsinə səbəb ola bilər.

Mingəçevir və Varvara su anbarlarında bəndin yuxarı yamacında beton üzlüklərin dağılması irihəcmli boşluqların yaranmasına səbəb olmuşdur və bu proses davam etməkdədir".

**Qeyd edilən problemlərin mövcud olması, su anbarlarının kaskad şəklində yerləşməsi, eləcə də Mingəçevir su anbarının yerləşdiyi ərazinin seysmo-tektonik xüsusiyyətləri bu su obyektlərinin təhlükəsizliyinin təmin olunması istiqamətində müvafiq tədbirlərin görülməsini tələb edir:** "Məlum olduğu kimi, keçmiş SSRİ dövründə Mingəçevir su anbarının hidrotexniki qurğularında Rusiyanın müxtəlif şirkətlərinin iştirakı ilə müvafiq qurumlar tərəfindən 5 ildən bir instrumental müayinə işləri aparılırdı. Sonuncu dəfə bu müayinə işləri Mingəçevir və Şəmkir su anbarlarının hidrotexniki qurğularında yalnız "Azərenerji" ASC-nin mütəxəssisləri tərəfindən 2009-cu ildə aparılmışdır".

**Ceyranbatan su anbarının ətrafında 7 ədəd bəndin uzun müddət əsaslı təmir edilmədən istismar olunması nəticəsində onların dəmir-beton üzlüklərinin çox hissəsi dağılıb. Bu bəndlərin əksəriyyətində sızmalar müşahidə edilir:** "Ceyranbatan su anbarının Bakı, Sumqayıt, Xırdalan şəhərlərinin və Abşeron rayonunun əhalisinin içməli su ilə təchiz etdiyini və onun dağıdıcı dalğasının təsir zonasında çoxlu sayda yaşayış binalarının, sənaye və sosial obyektlərin yerləşdiyini nəzərə alsaq, bu obyektdə baş verə biləcək qəza böyük sayda insan itkisi və dağıntıya səbəb ola bilər".

**Qeyd olunan obyektlərdə bəzi hidrotexniki qurğular 50 ildən artıq istismar olunduğundan onların təhlükəsizliyinin təmin olunması üçün kompleks və çoxfaktorlu analizlərin və xüsusi tədqiqatların aparılması tələb olunur:** "Bu tədqiqatların tərkibinə topo-geodezik, mühəndis-hidroqrafik, mühəndis-geoloji, hidrometeoroloji, mühəndis-geofiziki, seysmoloji və müxtəlif növ laborator analiz və sınaq işləri daxildir. Bu işlərlə yanaşı, layihə çərçivəsində hər obyekt üzrə müasir avadanlıqlardan istifadə edilərək batimetriya ölçmələrinin, aerofotoşəkil tədqiqatların, digər müayinələrin aparılması, həmçinin böyük həcmdə mövcud layihə sənədlərinin toplanması və təhlili vacibdir".

❑ **İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**

# "Azəriqaz" rəhbərinə bir gündə iki zərbə

## Əkbər Hacıyev vurulur - AMEA-nın vitse-prezidentindən ilginc açıqlama; "Məişət qazının tərkibində müvafiq normativ sənədlərin tələblərinə uyğun olmayan, yanmayan qaz qarışıqları, eləcə də ağır karbohidrogen qatışıqları var"

**Qaz istehsalçısı olan Azərbaycanda əhalinin təbii qazın verilməsindən, həmçinin onun keyfiyyətindən heç də razı olmadığı hamıya məlumdur. Xüsusilə son illərdə getdikcə artan dəm qazı zəhərlənmələri cəmiyyətdə tez-tez əhaliyə verilən qazın tərkibi ilə bağlı şübhələrin yaranmasına səbəb olur.**

**Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti İbrahim Quliyevin "Xalq qəzeti"ndə dərc olunan "Fövqəladə hallar atlasının hazırlanması günün tələbidir" başlıqlı məqaləsindən aydın olur ki, bu şübhələr heç də əsassız deyilmiş. Alimin yazdığına görə, respublika ərazisində təbii qazın emalı, təchizatı və istehlakı sahəsində bir sıra nöqsan və qanun pozuntuları aşkar edilib:** "Aparılan araşdırmalar nəticəsində əhaliyə verilən təbii məişət qazının tərkibində müvafiq normativ sənədlərin tələblərinə uyğun olmayan, yanmayan qaz qarışıqlarının, eləcə də ağır karbohidrogen qatışıqlarının olması, SOCAR-ın tabeliyində olan qurumlara məxsus qazpaylama stansiyalarında təbii qazın təmizlənməsi, tənzimlənməsi və paylanması məqsədi ilə istismarda olan qurğu və avadanlıqların bəzilərinin köhnə olması, müasir tələbələrə cavab verməməsi halları üzə çıxıb. Baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması üçün müəyyən tədbirlər həyata keçirilməsinə baxmayaraq, qaz sızması ilə əlaqədar partlayış (yanğın) hadisələrinin, eləcə də çoxsaylı ölümlə nəticələnən dəm qazından zəhərlənmə hallarının baş verməsi hələ də davam etməkdədir".



Məqalədə qeyd olunur ki, məsələnin ciddiliyini və aktuallığını nəzərə alaraq, qaz təchizatı və istehlakı sahəsində təhlükəsizlik məsələlərinin təmin edilməsi, bu sahədə mövcud problemlərin tam həllinə nail olunması məqsədi ilə istehlakçılara müvafiq standartların tələblərinə uyğun təbii qazın verilməsi, təbii qazın tərkibinin insan həyatı üçün təhlükəli olan qarışıqlardan təmizlənməsi üçün respublikaya müasir modul qaz təmizləyici stansiyaların (qurğuların) gətirilməsi və ilkin olaraq ən vacib sahələrdə (neft-qazçıxarma idarələrində) quraşdırılması vacibdir. Bundan əlavə, təbii qazın hasilatı və paylanması ilə məşğul olan təsərrüfatların istismara yararlı olan və yeni texnologiyalar əsasında keyfiyyətə təminat verən, tam avtomatlaşdırılmış qurğu və avadanlıqlarla əvəz edilməsi, ölkəyə gətirilən qaz cihazlarının keyfiyyətinə və istismar qaydalarına nəzarətin gücləndirilməsi lazımdır.

**"Azəriqaz" xidmətindən, istehlakçılara verdiyi qazın keyfiyyətsizliyindən narazı təbəqələrdən biri də sahibkarlardır. Dünən onlardan bir qrupunun təmsilçisi, Azərbaycan Meyvə-Tərəvəz İxracatçıları Assosiasiyasının rəhbəri Bəşir Quliyev də qaz təchizatındakı problemləri dilə gətirib:** "Azərbaycan Meyvə-Tərəvəz İxracatçıları Assosiasiyası SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin göstərdiyi xidmətdən və verilən təbii qazın keyfiyyətindən narazıdır".

**Bakıda keçirilən "Kənd təsərrüfatı inkişafının müasir tendensiyası" adlı tədbirdə çıxış edən B.Quliyev bildirib ki, bu gün meyvə-tərəvəz istehsalçılarının və ixracatçılarının əsas işi təbii qazdan asılıdır:** "Ancaq buna baxmayaraq, məhsullarımızın maya dəyərinin böyük bir hissəsi qaza görə ödənişlə bağlıdır. "Azəriqaz"ın xidməti və verilən keyfiyyət isə bizi qane etmir".

**Assosiasiya rəhbəri deyib ki, bu ilin oktyabr ayında yeni isitmə mövsümü başlayacaq:** "Təklif edirəm ki, o vaxta qədər bu məsələlər assosiasiya tərəfindən müzakirə edilsin. İnanıram ki, o vaxta qədər Azərbaycan Meyvə-Tərəvəz İxracatçıları Assosiasiyasının növbəti iclası keçiriləcək. Biz "Azəriqaz"a və SOCAR-a qazın maya dəyərinin aşağı salınması və keyfiyyətinin artırılması ilə bağlı öz təkliflərimizi verək. Əgər bütün bunlar edilsə, Azərbaycanın meyvə-tərəvəz istehsalı və ixracı daha da artacaq və istehsalın maya dəyəri də ucuzlaşar" (APA).

Eyni gündə iki tribunadan "Azəriqaz"la bağlı ciddi tənqidlərin dilə gətirilməsi bu qurumun rəhbəri Əkbər Hacıyevin vurulması prosesinin başlanması kimi qiymətləndirilə bilər. Məsələ burasındadır ki, hazırda yaydır - nə dəm qazı zəhərlənmələrinin, nə də istixanaların mövsümü deyil. Buna görə də AMEA rəsmisinin, həmçinin assosiasiya rəhbərinin açıq mətnlə qaz təchizatı şəbəkəsindəki problemləri məhz indi qabartması heç də təsadüfə bənzəmir. Nəzərə alsaq ki, İ.Quliyevin məqaləsi hakimiyyətin əsas media orqanı olan "Xalq qəzeti"ndə dərc olunub, onda "Azəriqaz" rəhbərindən narazılığın hakimiyyətin yüksək pillələrindən qaynaqlandığını söyləmək olar.

Onu da qeyd edək ki, son vaxtlar "Azəriqaz"ın fəaliyyətindəki nöqsanlarla bağlı sosial şəbəkələrdə çoxsaylı faktlar açıqlanır. Müxtəlif rayonlarda sayğac sahiblərinə əsassız aktların tərtib olunması, istehlakçıların qanunsuz şəkildə iri məbləğdə cərimə edilməsinə dair sənədlər ictimailəşdirilir. Görünür, Ə.Hacıyevin gözdən düşməsində bu faktorların da rolu olub. Hər halda, sosial şəbəkələrdəki narazılıqlar heç də nəticəsiz qalmır.

❑ **TURQUT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 141 (7030) 3 iyul 2018

# “Bura böyük gələcək və uğurlu karyera deməkdir”

## “Əl Cəzirə”nin azərbaycanlı xanım əməkdaşı “Yeni Müsavat”a danışdı; **Ayseba Umudlu:** “Dünyanın ilk beşliyində olan telekanalda işlədiyim üçün özümü çox şanslı sayıram”

**Azərbaycanlı gənclərin xarici platformalarda uğur qazanması, mövqeyə sahiblənməsi həmişə sevindiricidir. Belə gənclərimizdən biri də Aysəba Umudludur. Aysəba xanım bir müddət öncə dünyanın ən məşhur telekanallarından biri olan “Əl Cəzirədə” işə düzəlib. O, “Yeni Müsavat”ın əməkdaşı ilə söhbətdə bu uğura aparan yoldan, qarşıda duran işlərdən, gözləntilərindən danışıb.**

**- “Əl Cəzirə”yə qədər hansı KİV-də çalışmısınız? Xarici yayımçılarla hansısa təcrübəniz olubmu?**

- Bəribaşdan deyim ki, məni “Əl Cəzirə”yə aparan yol heç də rahat olmayıb. Buna qədər mən müxtəlif yerlərdə çalışıb, təcrübə keçmişəm. Həyat məktəbim, sınaqdan keçdiyim ilk məkan isə öz evimiz olub. Belə ki, qurucusu atam olan Beynəlxalq Avrasiya Mətbuat Fondunun yarandığı 90-cı illərin əvvəllərindən bizim evə dünyanın müxtəlif yerlərindən jurnalistlər, beynəlxalq təşkilatların təmsilçiləri gələrdi. (**Redaksiyadan xüsusi qeyd: Ayseba Umudlu tanınmış jurnalist, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlunun övladıdır**). Evimiz BAMF-in “baş qərargahı”na çevrilmişdi. Gələn bütün “qonaq”ların səfər proqramları buradan koordinə edilər, görüşləri buradan təşkil olunardı. Burada onların Qarabağa səfərləri təşkil edilər, Ermənistan-Azərbaycan konflikti barədə həqiqətlər tarixi sənədlərlə, kitablarla və xəritələrlə izah olunardı. Qonaqların bir çoxu bəzən bizim evdə qalardılar. Beləcə, mənim uşaqlıq dövrüm qəribə bir ortamda keçib. Bu da özünəməxsus bir həyat məktəbi idi. Belə bir mühitin mənim ingilis dilini erkən yaşlarımda öyrənməyimdə və jurnalistika peşəsinə meyl salmağımda böyük rolu olub. Bəzən tərcümə işlərində yardım etməyimə atam sevinsə də, hiss edirdim ki, jurnalistikaya meyllənməyimə bir o qədər də xoş yanaşmır.

**- Universiteti bitirdikdən sonra işləməyə qərar verdiz?**

- Ali təhsilimi bitirdikdən sonra Avrasiya Media Şəbəkəsində çalışmağa başladım. Qlobal media qurumu olan Beynəlxalq Mətbuat İnstitutunun dünyanın müxtəlif ölkələrində keçirilən ən müxtəlif tədbirlərinin iştirakçısı oldum. Televiziya jurnalistikasında təcrübəmə gəlincə, öncə Türkiyədə Beyaz TV-nin xəbərlər şöbəsində təcrübə keçmişəm. Yerli kanallarımızdan Space TV, Xəzər TV-də çalışmışam, bir sıra proqramların müəllifi olmuşam. Ancaq böyük həvəs, əziyyət və əzm bu yolda irəliləməyimə kömək etdi.

**- İngilis dilini harada öyrənmisiniz? Ümumiyyətlə, ali təhsili harada almısınız?**

- İngiliscəyə həvəsim ilk dəfə atama tərcümə etdikcə yaranmağa başladı, sonra orta məktəbdə və əlbəttə ki, daha sonra ali məktəbdə inkişaf etdirdim. Mən bakalavr təhsilimi BDU Beynəlxalq münasibətlər-beynəlxalq hüquq fakültəsində almışam, magistr dərəcəmi isə London Siti Universitetində, Beynəlxalq siyasət və insan hüquqları üzrə oxumuşam. Düşünürəm ki, ingilis dili və başqa dillərə yiyələnməklə yanaşı, ana dilimizdə səlis danışmaq olduqca vacibdir. İngiliscə, sadəcə, danışmaq, çoxlu mütaliələr etmək lazımdır. İnanın ki, hər qapının açarı savad, bilik, əzmdir. Beynəlxalq status almaq, beynəlxalq qurumlarla əməkdaşlıq etmək üçün əcnəbi dilləri daha yaxşı bilmək lazımdır. Bu səbəbdən mən də ingilis dili biliklərimin üzərində daim çalışmışam, özümü inkişaf etdirmişəm.



**- “Əl Cəzirə” ilə əməkdaşlığınız necə başladı? Təsadüfi oldu, yoxsa necə? Hansı sahə üzrə çalışırsınız orada?**

- Əslində buna təsadüf deməzdim, çünki illərdir beynimdə bu fikir vardı. Beynəlxalq bir kanalda çalışmağı həmişə arzu etmişəm. İnsan qarşısına məqsəd qoyur və o məqsədə çatana qədər bəzən yorulur, usanır. Amma daha böyük istək olanda və bir şeyi candan, könüldən istəyəndə məqsədinə, arzusuna yetişir. Çox həvəsdən düşdüyüm zamanlar da oldu, ancaq içimdə bir inam mütləq bir gün nəticə olacağını deyirdi. Belə də oldu, çox şükür.



“Əl Cəzirə” ilə də tanışlığım Beynəlxalq Media İnstitutunun təşkil etdiyi tədbirlər zamanı yarandı. “Əl Cəzirə”nin tədbirlərinə qatıldım. Daha sonra isə bu media qurumunda təcrübə keçmək imkanım yarandı. Onu da deyim ki, təcrübə proqramının əvvəlindən sonuna kimi çox ciddi imtahanlardan, sınaqlardan keçdim. Bəlkə də sadə səslənir, ancaq həqiqətən gecə-gündüz çalışdım. Üç aylıq sınaq dövründən sonra işə cəlb edildim. “Əl Cəzirə”də işə başlamağımdan çox keçməyib, amma özümə qarşı çox tənqidi yanaşıram, daha çox öyrənmək, daha yaxşı və fərqli olmaq, yavaş-yavaş da irəliləmək istəyirəm. Qeyd etdiyim kimi, burada çalışmaq böyük bir məsuliyyətdir, gələcəkdir, karyeradır.

**- “Əl Cəzirə”də hansı şöbədə işə başlamısınız?**

- Onlayn şöbəsində çalışıram. Sosial media səhifəmiz üçün videolar hazırlayıram, bəzən məqalələr yazıram.

**- Dünya şöhrətli bir telekanalda işləmək hansı hissləri yaradır? “Əl Cəzirə” təcrübəsi Azərbaycan TV-ləri üçün nə deməkdir, sizcə?**

- Dünya şöhrətli kanalda azərbaycanlı olaraq işləmək, əlbəttə ki, mənimçün böyük qurur hissidir. Burada işlədiyim üçün özümü şanslı hesab edirəm. “Əl Cəzirə” böyük bir media məktəbidir. Dünyanın ilk beşliyində olan beynəlxalq bir media şəbəkəsidir. Bu kimi media şəbəkələrindən öyrənə biləcəyimiz xeyli biliklər, yeniliklər var. Onların təcrübəsindən faydalanmağın böyük üstünlükləri vardır. Düşünürəm ki, bizim media qurumlarımız da peşəkarlığın artırılması üçün “Əl Cəzirə” və digər beynəlxalq media qurumları ilə əməkdaşlıq etsə, faydalı olar.

**- Azərbaycan TV-lərindən “Əl-Cəzirə” ilə əməkdaşlıq edəni varmı? Belə bir əməkdaşlığın qurulması üçün çalışmalarınız olacaqmı?**

- Əvvəlki illərdən fərqli olaraq, Azərbaycan media qurumlarının “Əl Cəzirə” Media Şəbəkəsi ilə əməkdaşlığı hiss olunur. Amma rəsmi olaraq hər hansı bir kanalla rəsmi anlaşma mövcud deyil. Arzu edirəm, gələcəkdə bu əməkdaşlıq daha da inkişaf etsin. Belə bir əməkdaşlıq hər iki tərəf üçün faydalı ola bilər. Əlbəttə, bu sahədə hər hansı imkanlar olarsa, mən də öz növbəmdə əlimdən gələni əsirgəmərəm.

**- Bir qadın üçün ərəb telekanalında çalışmaq, ərəb ölkəsində yaşamaq hansısa məhdudiyyətlər yaradırmı? Bu telekanala ərəb ənənəsinin, mentalitetinin, cəmiyyətinin təsiri nə qədərdir?**

- Düzünü desəm, ərəblərin adət-ənənələri bir neçə spesifik adətləri çıxmaq şərtilə, Azərbaycan adət-ənənələri ilə çox oxşardır. Sadəcə, ərəblər öz adət-ənənələrində daha mühafizəkardırlar. Lakin bu, burada çalışanlar üçün heç bir problem yaratmır. “Əl Cəzirə” beynəlxalq kanaldır. Burada müxtəlif dillərə, dinlərə məxsus peşəkarlar xoş bir ortamda çalışırlar. Burası dünyəvi bir məktəbdir.

**“Ərəblər öz adət-ənənələrində daha mühafizəkardırlar. Lakin bu, burada çalışanlar üçün heç bir problem yaratmır”**

**- “Əl Cəzirədə” hansı səviyyəyədək yüksəlmək imkanlarınız var? Ümumiyyətlə, başqa tanınmış telekanallara keçmək variantları barədə düşünürsünüzmü?**

- Əvvəldə qeyd etdiyim kimi, “Əl Cəzirə” böyük bir media məktəbidir. Bu həm də öz bacarıqlarını, potensialını ortaya qoymaq, sübut etmək üçün beynəlxalq media platformasıdır. “Əl Cəzirə” Media Şəbəkəsi özü elə bir yerdir ki, potensialı olan, əzmkar insanlara yüksəlmək üçün mütləq imkanlar verir. Mən də əlimdən gəldiyi qədər çalışıram ki, bu platformada öz bacarıqlarımı sərgiləyə bilim.

Hələ ki başqa beynəlxalq telekanallar haqqında düşünmürəm. “Əl Cəzirə” Media Şəbəkəsi özü elə bir yerdir ki, potensialı olan, əzmkar insanlara yüksəlmək üçün mütləq imkan verir. Mən də əlimdən gəldiyi qədər çalışıram ki, bu kanalda zamanla istədiyim məqama çata bilim.

❑ **Dünya SAKİT,**
**Musavat.com**

---

# Cibi bıçaqlı gənclərin taleyi...



**Xalid KAZIMLI**

**Dünən Bakıda 18 yaşlı bir oğlan 16 yaşlı həmkəndlisini bıçaqlayaraq qətlə yetirib. Hadisə Hökməli kəndində baş verib, ancaq ölkənin istənilən kəndində baş verə bilərdi. Bu gənclərin tay-tuşları son 120 ilin ən isti yay günlərində canlarına cəhd gələrək ali məktəb imtahanlarına hazırlaşırlar, onların biri həbsə, digəri məzara girdi.**

Bəzi açıq-saçıq mətn və şəkilləri olan, zorakılıqdan bəhs edən xəbərlərə qoyulan 18+ işarəsi onun göstəricisidir ki, bu yaşdan aşağı adamlar hələ yetkin deyillər, yetkinlərin görə biləcəkləri şeyi görməməlidirlər.

Ancaq hələ yetkin olmayan, dünya üzündə bir gün görməyən bu uşaqların ikisinin də həyatı puç oldu.

Bu hadisənin səbəbi nə olur-olsun, qətlin motivinin nə olmasından asılı olmayaraq, olayı heç bir halda anlayışla, təbii bir şey kimi qarşılamaq olmaz.

O yaşda uşaqlar, gənclər bir-birilə söz güləşdirə, ən pis halda əlbəyaxa olub dalaşa bilərlər. Bir-birinə şillə vurarlar, kimsə araya girib onları aralaşdırar, məsələ bitər. Daha bıçağa əl atmaq nədir?

Hər belə davaya görə bıçağa əl atılsaydı, heç kəs 18 yaşdan salamat çıxmazdı. Çünki bu yaşda gənclərin özünütəsdiq kimi bir problemləri olur, artıq yetkin adam olduqlarını, kişiləşdiklərini göstərmək istəyirlər, bu istəyi reallaşdırmağın bir yolu da orda-burda dalaşmaqdan keçir.

Bu, ibtidai, bioloji, heyvani instinktdir. Heyvanlar aləminə aid sənədli filmlərdə də yetkinlik yaşına çatan təkələrin bir-birini kəlləməsinə dair epizodlar göstərilir.

Ancaq 16-18 yaşlı gənclərin cibində bıçaq gəzdirməsi, özünü hansısa təhlükədən qorumaq qayğısına qalması, potensial rəqiblərini soyuq silahla zərərsizləşdirmək niyyəti daşıması ciddi anormallıqdır. Bu, cəmiyyət üçün təhlükə deməkdir.

Belə çıxır ki, bu yaşda adamların bir sıra xarici ölkələrdə olduğu kimi asanlıqla odlu silah tədarük etmək imkanları olsaydı, ciblərində bıçaq yox, tapança gəzdirərdilər. Çünki düşüncə budur: yolun üstünə çıxanı, mane olanı, sataşanı öldürmək lazımdır, sən öldürməsən, onlar səni öldürəcəklər.

Bir gəncin bıçaqla digərini qətlə yetirməsi nə qədər faciəvi hadisə olsa da, əslində adi, gözlənilən olaydır. Ona görə ki, bu ölkədə minlərlə gənc hər gün evdən çıxanda cibinə bıçaq qoyub çıxır. Bu kəsici-deşici alət onlara güc və əminlik verir. Onlar özləri istəmədən belə münaqişəli situasiyaya düşdükdə dərhal yardımçı vasitəyə əl atır, fiziki cəhətdən özlərindən güclü olanlara da müqavimət göstərirlər.

Təcrübə göstərir ki, öncədən cibində bıçaq gəzdirən gənclər əslində aqressiyaya meylli olurlar və çox vaxt qanla bitən dava-dalaşın əsas səbəbkarı da elə özləri çıxır.

Hələ keçən ilin ortalarında, eləcə də əvvəlki illərdə gənclər arasında kriminal aləmə rəğbətin yüksələn xətt üzrə populyarlaşdığından, bığ yeri təzə-təzə tərləyən yeniyetmələrin özlərini “yatıb-çıxmış oğlanlar” kimi aparmalarından yazırdıq.

Bir ay öncə 11-cilərin məzun günündə orta məktəbi yenicə bitirən gənclər üçün təşkil olunan şənlikdə məzun oğlanların “Dolya vorovskaya” kimi kriminal aləm mahnısının sədaları altında oynadıqlarını gördük. Bu, onların kriminal dünyaya rəğbətindən xəbər verən epizod idi.

Kriminal dünyanın qayda-qanunları isə budur: güclü olan yaşayır, zəif olan ölür, mane olan öldürülür, etiraz edən vurulur, dikbaşlıq edən, tabe olmayan sındırılır və sair və ilaxır.

Adi, normal, mədəni həyatda ətrafındakılarla yollaşıb yola gedə bilməyən, özünə iş-güc tapmağı bacarmayan şəxs qapalı rejimdə, məhrumiyyətlərlə dolu mühitdə, hər tipdən olan insanların cəmləşdiyi ortamda necə baş edə bilər?

Özünə güvənənlərin 90-95 faizi məhz həmin ortamda məhv olub gedəcək.

Bu xüsusda müasir valideynlərdən çox şey asılıdır. Onlar öz övladlarını 2-3 yaşlarında necə ətraf mühitdən qoruyurdularsa, 17-18 yaşlarında da eyni diqqətlə kriminal jarqonlu küçədən, türmə rüzgarlarının əsdiyi mühitlərdən qorumalıdırlar.

YENİ MÜSAVAT
N 141 (7030) 3 iyul 2018



# Qarpızın sirləri

Zamin HACI
zaminhaci@gmail.com

"Xiyarı o, özünə qapıçı qoymuşdu.
Şamamanı qarşısında qulluqçu təyin etmişdi"
***(Füzuli, "Meyvələrin söhbəti")***

**Biz bir media zəhmətkeşləri olaraq hər bir təqvim hadisəsini diqqətdə saxlayırıq. Misal üçün, 26 iyunda ordu gününü qutladıq, dünən polislərin bayramını. Bu gün isə Əlcəzairin Fransadan qopub müstəqilliyini elan etməsinin il dönümüdür. Bizim müsəlman camaatımız üçün Əlcəzair olduqca önəmli yerdir, dəfələrlə fransızları orada törətdikləri soyqırıma görə qınamışıq. Xüsusən Türkiyə və Azərbaycan müsəlmanları daima Əlcəzairi düşünürlər, onun keçmişi, indisi, gələcəyi bizi narahat edir. O üzdən təklif edirəm, Əlcəzairin müstəqilliyi şərəfinə bir salavat çevirək.**

Mən özüm isə dünən oxuculara söz verdiyim temaya qayıdıram. Tema qarpızın seçilməsi temasıdır. Hər yay bizdə bu olduqca aktual olur. Bütün Azərbaycan boyunca qarpızı qulağına tutub tıqqıldadan, qucaqlayıb öpən, çırtıqlayıb qarpızla rəqs edən, nə bilim, o üz bu üzünə çevirib diqqətlə baxan minlərlə zəhmətkeşimizi görmək mümkündür. Dəxli yoxdur, zənənli-kişili, ağsaqqallı-ağbirçəkli, uşaqlı-böyüklü, qonaqlı-qaralı hər bir kəs qarpızın sirrinə agah olmaq cəhdləri edir. Hazırda bəzi hotel və istirahət mərkəzlərimizdə, həmçinin kanalizasiya lyuklarında qonaq ərəb turistlərimizə qarpızın çölünə baxıb içini bilməyi öyrədən kurslar açılmışdır.

Təbii ki, dövlət orqanları da bu vacib dövlətçilik tədbirindən qıraqda qala bilməzlər. O səbəbdən Dövlət Qida Təhlükəsizliyi Agentliyi bugünlərdə mətbuat üçün açıqlama vermişdir. Bəyanatda deyilir: "Qarpız seçərkən onun tamlığına, ölçüsünə, rənginə diqqət edilməlidir. Çatlaq, saplağı quru, üz cizgiləri yayğın qarpızı almayın. Ümumiyyətlə, yaxşı olar qarpız ancaq avqust ayında yeyilsin. Əgər aldığınız qarpızı çatdırıb avqustda yeyə bilməsəniz, sentyabrda qətiyyən əl vurmayın. Saxlayın, gələn ilin avqustunda yeyin. Yoxsa zəhərlənərsiniz". Sözgəlişi, bilmirəm diqqət eləmisinizmi: dövlət qida təhlükəsizliyi temasını nəzarətə götürəndən bəri vətəndaşlarımız zəhərlənib ölmür. Kim bu yolla ölsə, qanını yoxlamaq lazımdır, bəlkə xarici qüvvədir, casusdur?

Qarpız tağının dibinə qayıdaq, bizim nəyimizə lazım siyasətə qarışaq? Odur, bir nəfər İlqar Məmmədov adlı şəxs siyasətə qarışmışdı - İsmayıllıya vizasız getmişdi, indiyə qədər altını çəkir. 6 ildir türmədədir, 60 məhkəmə qurumu onun qorxunc cinayətini araşdırır. Doğrudan da, düzgün adamsansa yanvar ayında İsmayıllıda nə işin var; həqiqi vətəndaşlarımız ora yayda gedirlər, uzağı may ayında, bir də oktyabrın 15-nə qədər, o da əgər qar yağmasa... Hazırda Ali Məhkəmə kasasiya şikayətini Şəki məhkəməsinə qaytarıbdır. Şəki Ağır Cinayətlər Məhkəməsi buna apelyasiya edib Ali Məhkəmədə kasasiya eləmişdi, sonra Konstitusiya Məhkəməsi buna bir dəfə apelyasiya qoymuşdu. Sonra Avropa Məhkəməsi etiraz elədi, iş təzədən qayıtdı İsmayıllı Rayon Məhkəməsinə. Ordan getdi Şəki apelyasiyasına, bir də qayıtdı Ali Məhkəmənin kassa-apelyasiya instansiyasına. İnstansiyadan şikayət olundu... Dəhşətdir, yığıb-yığışdırmaq olmur ki.

Hə, qarpızda qalmışdıq. Əşşi, başınızı aşağı salın, qarpızınızı tıqqıldadın, yenə bizdə qarpız var, heç Çukotkada qarpız bitmir. Təhsil Nazirliyi yeni dərsliklər hazırlayıb, orada məktəblilərə qarpızı necə seçməyin üsulları öyrədilir. Tibb Universitetində tələbə-cərrahlar qarpızı skalpellə yarıb onun özəyini qansız-qadasız çıxartmağı məşq edirlər, çünki bundan qabaq bir hadisə olmuşdu, həkim çaşıb qarpız əvəzinə medbratın başını kəsmişdi. Medbrat da hirslənib anesteziologu narkoza salmışdı. Pis günlər idi, getsin gəlməsin.

Qarpızı sıxırsan, səsinə qulaq asırsan. Əgər oradan həzin "caarrtt" səsi gəlirsə, deməli, bunu nuş eləmək olar. Əks halda, qarpız sıxıntı halında muğamat oxusa, bostanın müdirindən BOSTAN-xidmətin rəisinə şikayət eləsə, diqqətli davranmalıyıq. Bəzən qarpızlar masaya çatmamış əldə partlayır, bu zaman ordumuzun mühəndis-istehkam birliklərindən məsləhət almaq vacibdir.

Bir də qarpızların öz köşə yazarları olur, inşallah, başqa vaxt bu haqda hörmətli oxuculara məlumat çatdırarıq. Əlbəttə, arzu edərlərsə. Bizdə hər şey arzu ilədir. Şair demişkən, "Arzum budur boy atasız, Ananıza siz çatasız!"



# Putinin Lələtəpədən verdiyi mesaj hədəfə çatdı: İrəvanda həyəcan

"Kremlin bizə qarşı planı var, Ermənistan hakimiyyətini müharibə ilə hədələyir"- erməni KİV-indən SOS; **Rusiyanın nüfuzlu nəşri də Çocuq Mərcanlı konfransından yazdı:** "Paşinyanı və komandasını "tərbiyələndirmək" üçün..."

**Rusiyalı tanınmış ictimai-siyasi xadimlərin Cocuq Mərcanlıya səfəri ötən həftənin ən yadda qalan siyasi akkordlarından sayıla bilər. "Azərbaycan - Qafqazda Rusiyanın yeganə müttəfiqidir" adlı konfransa qatılan rusiyalı qonaqların Qarabağ mövzusunda açıqlamaları, Lələtəpədə əsgərlərimizlə görüşüb onlara "ruh verməsi" xüsusilə diqqət çəkdi.**

Gözlənildiyi kimi, səfər və keçirilən tədbir erməni tərəfdə təlaşı artırıb. Bakıdakı möhtəşəm hərbi parad, ardınca Azərbaycan ordusunun dünən başlanan genişmiqyaslı təlimləri və bu təlimlərdən bir gün öncə Rusiya ictimai rəyinə təsiri olan nüfuzlu xadimlərin, siyasətçilərin, Putinə yaxın şəxslərin Cocuq Mərcanlıya təşrif buyurması düşmən ölkədə əndişəni bir az da artırıb. Bunu hətta işğalçı ölkəyə qarşı Kreml və Bakının hansısa ortaq planı, son müharibə hazırlıqları kimi qəbul ediblər.

*****

"Kreml Gürcüstan və Ukrayna kimi Ermənistana qarşı da nəsə hazırlayır. Bu, əvvəl də aydın idi, ancaq indi planı o, heç gizlətmir də. Cocuq Mərcanlıya bir dəstə Kreml desantlarının göndərilməsi buna sübutdur. Onlar "Azərbaycan - Qafqazda Rusiyanın yeganə müttəfiqidir" adlı şouya qatılıblar".

**"Yeni Müsavat"ın məlumatına görə, aremnianreport.com saytındakı məqalədə belə deyilir. Daha sonra tədbirin Rusiyadan olan iştirakçılarına və onların sərgilədiyi mövqeyə diqqət çəkən müəllif yazır:** "Onların hamısı Bakı publikasına xoş gələn açıqlamalar verdilər. Savelyev *(Dumanın deputatı - red.)* isə lap uzağa gedib. "Dağlıq Qarabağ və ətrafındakı 7 rayon qeyd-şərtsiz Azərbaycana qaytarılmalıdır" deyib. Ən çox qəzəb doğuran isə Duqin oldu - hansından ki, bizim KİV-lər siyasətlər gətirməyi, müsahibə götürməyi sevir. "Bu, çox rəmzidir ki, biz bu görüşü Qarabağda keçiririk. Bu, bir daha göstərir ki, Azərbaycan Rusiyanın strateji müttəfiqidir. Hüquqi nöqteyi-nəzərdən Qarabağ Azərbaycan ərazisidir. Rusiya Qarabağı Azərbaycanın ərazisi hesab edir və bu, beynəlxalq hüquqa görə də belədir. Mən ilk dəfə Qarabağda səfərdəyəm. Bu, həm də Rusiya ziyalı təbəqəsinin Qarabağ probleminə yanaşmasının təzahürüdür" - Duqin deyib. Hələ Şevçenko kimi ayrı "oratorların" da çıxışları olub. Amma fikrimcə, Duqinin söylədiklərindən sonra hər şey olduqca aydındır: Kreml bizim hakimiyyətə qarşı təzyiqə keçib. Moskva İrəvandan Putinlə Sərkisyanın vaxtilə razılaşdırdığı "azad edilmiş ərazilər"lə bağlı (dırnaqlar bizimdir - "YM") satqın plana razılıq istəyir. Əks halda, bizi müharibə ilə hədələyir".

Qeyd edək ki, Cocuq Mərcanlıda 5 rayon söhbəti də olub. "Rusiya və Azərbaycan qardaş və müttəfiq ölkələrdir. Biz birlikdə, bir yerdə, ittifaqda olmalıyıq". Bunu öz çıxışında hakim "Vahid Rusiya" partiyasından deputat Aleksey Yezubov bildirib. "Putin, Sərkisyan və Əliyev tərəfindən hazırlanmış yol xəritəsinə müvafiq olaraq, Ermənistan işğal edilmiş 5 rayonu Azərbaycana qaytarmalıdır. Putin bildirib ki, bu, Rusiyanın dəyişməz mövqeyidir". Bu da onun sözüdür. Deputat daha sonra "Qarabağ da Azərbaycanın ayrılmaz tərkib hissəsidir" deyib.

*****

**Cocuq Mərcanlı tədbirinə Rusiya KİV-i də diqqət çəkib və bunu İrəvana xəbərdarlıq mesajı kimi təqdim edib. "Yeni Müsavat" xəbər verir ki, rosbalt.ru nəşri bununla bağlı yazıb:** "Azərbaycan ordusunun təlimlərin lap başlanma ərəfəsində, iki il öncə "4 günlük müharibə" zamanı azad edilən Cocuq Mərcanlıda "Azərbaycan - Qafqazda Rusiyanın yeganə müttəfiqidir" olduqca çoxmənalı ad daşıyan konfrans keçirilib. Rusiyalı tanınmış siyasətçilər, ictimai xadimlər, ekspertlər də daxil, çıxış edənlər çox olub. O sırada Rusiya Dövlət Dumasının "Vahid Rusiya" fraksiyasından deputat Aleksey Yezubov Rusiya prezidentinin Qarabağ konflikti ilə bağlı mövqeyini səsləndirib. "Ermənistan Putin, Əliyev və Sərkisyanın birgə razılaşdırdığı yol xəritəsinə əsasən, Azərbaycanın işğal altındakı 5 rayonunu qaytarmalıdır" deyib".

**Rosbalt.ru ardınca qeyd edir:** "Regionda qüvvələr balansı artıq açıq-aşkar Azərbaycanın xeyrinə dəyişib. Ermənistan isə Rusiyadan Su-30 SM qırıcıları almağa ümid edir. Söhbət ümumi məbləği 300 milyon dollar olan 12 qırıcıdan gedir. Doğrudur, hələ aydın deyil ki, belə "dəbdəbə" üçün pul haradan tapılacaq. Bu anlaşma müstəsna olaraq Rusiya silahları hesabına, oradan "gülməli qiymət"ə verilən silahlar hesabına ayaqda duran Ermənistanın döyüş qabiliyyətini əhəmiyyətli şəkildə qaldıra bilərdi. Ya da kredit. Bu yaxşılıq Ermənistanda qərbyönlü hakimiyyətin gəlişindən sonra da davam edəcəkmi, söyləmək çətindir. Moskva üçün məntiqli olardı ki, ermənilərə silah verilməsi məsələsində taym-aut götürsün. Necə deyərlər, "cəza kimi" və ya Paşinyanı və komandasını "tərbiyələndirmək" üçün - Azərbaycanla mümkün müharibədə özünün "neytrallığı" ilə İrəvanı şantaj edərək. Axı tam mümkündür ki, təlimlər hərbi əməliyyatlara da çevrilə bilər".

*****

Təlimlər də daxil, bütün bunlar şübhəsiz ki, işğalçı tərəfdə narahatlıq doğuracaqdı və doğurdu da. Ələlxüsus Cocuq Mərcanlıda Putinə yaxın deputat və ekspertlərdən Azərbaycanın mövqeyi ilə səsləşən yanaşmaların sərgilənməsi düşmən tərəfdə təlaş yaradıb.

"Yeni Müsavat" bu yerdə xatırladır ki, Rusiya dövlət Dumasının spikeri, Putinin silahdaşlarından sayılan Vyaçeslav Volodin az öncə Bakıya etdiyi səfər zamanı Azərbaycanın Qarabağ məsələsində həmişə ədalətli və konstruktiv mövqe tutduğunu demişdi. Bu fikir də İrəvanda təlaşla qarşılanmışdı. Çünki Bakının mövqeyi çoxdan məlumdur.

Belə görünür ki, Kreml ermənilərin özlərinin də söylədiyi kimi artıq "düyməyə" basıb. Qərbyönlü baş nazir Nikol Paşinyan ayağını "qırmızı cizgi"dən kənara qoyan kimi Bakı ilə müştərək plan işə düşəcək. Paşinyan isə NATO sammitinə qatılmaq üçün Brüsselə səfərə hazırlaşır...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 141 (7030) 3 iyul 2018

**İranla ABŞ arasında siyasi gərginliyin artması, Tramp hakimiyyətinin cənub qonşumuza qarşı yenidən sanksiyalar tətbiq etməsi regionda yerləşən bütün dövlətləri narahat edir. Müxtəlif mətbu orqanlarda ABŞ-ın yeni və daha da gücləndirilmiş sanksiyalarla kifayətlənməyərək, İranda hakimiyyəti devirmək üçün müxtəlif planlar hazırladığına dair məlumatlar yer almaqdadır. Yenidən başlanan sanksiyalar fonunda İran milli valyutasının kəskin dəyərsizləşməsi və bahalaşma ölkə əhalisinin etirazlarına səbəb olub, müxtəlif yerlərdə kütləvi iğtişaşlar baş verib. Bu isə ABŞ-ın İranı daxildən vurmaq planı kimi qiymətləndirilməkdədir.**

# İranın qarışması Azərbaycana sərf etmir - səbəblər

## **İqtisadçı-ekspert:** "Bu, Azərbaycanın maraqlarına nə iqtisadi, nə də siyasi baxımdan cavab vermir"



Bu versiyalar doğru olarsa - İranda daxili savaş başlanarsa, yaxud ABŞ-la gərginlik silahlı münaqişəyədək gedib çıxarsa, Azərbaycan üçün hansı iqtisadi problemlər yarana bilər?

Suala cavab verən **iqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov** hesab edir ki, İranda hərbi münaqişənin olması Azərbaycana nə iqtisadi, nə də siyasi baxımdan sərf etmir: "İranla Azərbaycan arasında iqtisadi münasibətlər getdikcə inkişaf edir. Hətta bir çoxları üçün inanılmaz görünsə belə, mübahisəli yataqların birgə işlənməsi barədə razılaşma əldə olunub. İki ölkə arasında münasibətlərin yüksək inkişaf etdiyini nəzərə alsaq, aydın olar ki, İranda savaşın başlanması Azərbaycan üçün arzuolunan deyil".

**Ekspertin fikrincə, İranda savaş başlanarsa, bunun Azərbaycana birbaşa olmasa da, dolayı təsirləri ola bilər:** "İran ərazisində milyonlarla azərbaycanlı yaşayır. Müharibə olarsa, onların bir qismi Azərbaycana miqrasiya edə bilər. Bu isə həm Azərbaycanın əmək bazarında, həm digər sektorlarda problemlər yaradar. Eyni zamanda investisiyaların cəlb edilməsi baxımından regionda ciddi bir risk formalaşacaq. Çünki müharibələrin, hərbi münaqişələrin olduğu regionlara investisiya ayrılması böyük risklər yaradır. Bu isə qeyri-neft sektoruna investisiyalar cəlb etməyə çalışan Azərbaycan və digər region ölkələri üçün ciddi problem deməkdir.

Digər tərəfdən, müharibə Şimal-Cənub nəqliyyat dəhlizini təhlükəli hala gətirəcək. Bu isə həmin dəhlizi aktivləşdirməyə çalışan Azərbaycan üçün əlverişli sayıla bilməz. Nəzərə alsaq ki, Azərbaycan dəhlizin tərkib hissəsi olan Rəşt-Astara dəmiryol xəttinin çəkilməsi üçün İrana 500 milyon dollar kredit ayırıb, müharibə variantının bu böyük layihəni yarımçıq qoyacağını söyləyə bilərik".

"Yeni Müsavat" olaraq bildirək ki, İranın siyasi rejimindən Azərbaycana yönəlik müəyyən gözləntilərimiz, umacaqlarımız olsa da, bu umacaqlar reallaşmayanda umu-küsülərimiz yaransa da bu ölkə bizim üçün strateji əhəmiyyətə malikdi. İran xalqı ilə Azərbaycan əhalisinin 90 faizi eyni din, məzhəb və müəyyən qədər də mədəniyyət daşıyıcısıdır. Orada müharibənin başlaması radikal dini məzhəblərin aktivləşməsinə gətirib çıxara bilər. İranda sabitliyin pozulması terror təşkilatları üçün münbit şərait deməkdi. Qonşuluğumuzda belə bir durum bizə də yaxşı perspektiv vəd etmir. Terrorun Azərbaycan ərazilərinə də keçə biləcəyi istisna deyil.

İraqda, Misirdə, Suriyada və başqa region ölkələrində ABŞ ordusunun hərbi müdaxiləsi adıçəkilən ölkələrdə terror qruplaşmalarının meydana gəlməsi ilə müşayiət olundu. Terror təşkilatları üçün qeyri-stabil ölkələr münbit şərait deməkdir. Bundan da ən çox zərərçəkən mülkü əhali olur.

Nəhayət, İran ərazisində 30 milyondan artıq azərbaycanlının yaşadığını nəzərə alsaq, müharibənin bizə hansı pis aqibət vəd etdiyini təsəvvür etmiş olarıq.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Tramp Putinlə görüş öncəsi atmosferi yumşaltmaq istəyir

## **Politoloq:** "ABŞ hüquqi cəhətdən yalnız bir halda Krımı Rusiya ərazisi kimi tanıya bilər"





**ABŞ prezidenti Donald Trampla Rusiya prezidenti Vladimir Putin arasında 16 iyulda keçirilməsi planlaşdırılan görüş öncəsi Vaşinqtondan Moskvaya xoş görünən açıqlamalar verilməkdədir. Donald Tramp jurnalistlərin "ABŞ Krımı Rusiya ərazisi kimi tanıya bilərmi?" sualına "Belə bir qərarı istisna etmirəm, bu məsələyə baxarıq" cavabını verib. Tramp Krımın Rusiyaya birləşdirilməsində sələfi Barak Obamanı günahlandırıb. "Buna Barak imkan verdi" deyib.**

ABŞ prezidentinin belə bir mövqe ortaya qoyması Ukraynada narazılıqla qarşılanıb. Ukrayna siyasətçiləri ABŞ prezidentini Ukraynaya xəyanət etməkdə suçlayırlar. Eyni zamanda qeyd edirlər ki, Tramp belə bir addımı atsa, onun təsiri münaqişə ocaqları mövcud olan digər keçmiş sovet respublikalarına da toxuna bilər.

Bəs ABŞ-ın Krımı Rusiyanın tərkib hissəsi kimi tanıması mümkündürmü?

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Donald Tramp Rusiyaya qarşı tətbiq edilən sanksiyaların aradan qaldırılması və Krımın Rusiya ərazisi kimi tanınması ilə bağlı suala "baxarıq" cavabını verib. Bu, hələ Krımın tanına biləcəyi anlamına gəlmir:** "Zənnimcə, ABŞ prezidenti, sadəcə, Putinlə görüş öncəsi atmosferi yumşaltmaq üçün ümidverici bəyanatlar verib. Nəinki Krımın Rusiya ərazisi kimi tanınması, hətta Rusiyaya qarşı tətbiq edilən sanksiyaların aradan qaldırılması belə, təkcə Trampın istəyindən asılı məsələ deyil. Krımla bağlı məsələyə nə ABŞ qanunvericiliyi, nə də beynəlxalq hüquq müstəvisində haqq qazandırmaq mümkün deyil. Krım işğal olunub və zorla Rusiyaya birləşdirilib. İşğal faktı BMT Baş Assambleyasının və digər beynəlxalq təşkilatların qətnamələrində öz əksini tapıb. ABŞ hüquqi cəhətdən yalnız bir halda Krımı Rusiya ərazisi kimi tanıya bilər. O halda ki, Ukrayna ilə Rusiya arasında bu barədə razılıq əldə olunsun".

Politoloqun sözlərinə görə, Rusiyaya qarşı sanksiyaların aradan qaldırılması Tramp adminstrasiyasının səlahiyyətinə aid olan məsələ deyil. Bununla bağlı qərar parlamentin hər iki palatasında təsdiq olunmalıdır. Senat və Konqresdə isə anti-Rusiya əhval-ruhiyyəsi yüksək səviyyədədir.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Bəşər Əsəd cənub sərhədlərini götürür

## Suriya ordusu inqilabın başladığı Dəraya hücum edib, hökumət İordaniya və İsrail sərhədini nəzarətə almağa çalışır



**Bir neçə həftə davam edən hazırlıqdan sonra Suriya ordusu ölkənin cənubunda əməliyyatlara başlayıb. Hazırda ordu qüvvələri ölkənin cənubuna doğru sürətlə irəliləyir. Artıq 10-a qədər yaşayış məntəqəsi, o cümlədən Busra əl-Həriri, əl-Musafirə kimi şəhərlər azad edilib. Dəra ətrafında toqquşmalar artıb.**

Qeyd edək ki, Suriyada ilk aksiyalar 2011-ci ilin martında Dərada divar yazısı ilə başlayıb. Daha sonra ölkənin digər regionlarına yayılıb. İndi isə Dəməşq və ətrafını müxaliflərdən azad etdikdən sonra Bəşər Əsəd Suriya üçün mühüm əhəmiyyət kəsb edən nöqtəyə - cənuba doğru yönəlib. Suriyanın cənubu İordaniya ilə sərhəddir, cənub-qərb isə İsraillə həmsərhəd ərazidir. Hər iki sərhəd zonası müxaliflərin nəzarəti altındadır. Hazırda Dəra uğrunda döyüşlər davam edir.

Bu arada Suriyanın cənub əməliyyatlarının gedişində İsrail və Rusiya müdafiə nazirləri arasında telefon danışığı olub. İsrail Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd olunur ki, nazir Liberman və Şoyqu arasında keçirilən telefon danışığı zamanı Suriyanın cənubunda davam edən hərbi əməliyyatlar və İranın bölgədə yerləşməyə çalışması müzakirə olunub.

Eyni zamanda Liberman İran və Hizbullahın Suriyada hərbi mövcudluğunun qəbuledilməz olduğunu bildirib. İsrailin müdafiə naziri İran və Hizbullahın Suriyada qalıcı yerləşməyə çalışması fəaliyyətlərini müşahidə etdiyi təqdirdə "gözlənilmədən hərəkətə keçəcəyini" vurğulayıb.

Qeyd edək ki, Suriyanın cənubunda İran və Hizbullahın varlığı mövzusu may ayında qarşılıqlı olaraq Suriya və İsrail ərazilərindən raket atəşləri baş verdiyi zaman gündəmə gəlmişdi. Daha sonra məlum oldu ki, Rusiya İsrail hökumətini Suriya ordusunun İsraillə sərhəddə əməliyyat keçirməyə razı salıb. Bunun qarşılığında isə Hizbullah və İran qüvvələri cənub bölgəsindən çəkiləcək və əməliyyatda iştirak etməyəcək. Belə anlaşılır ki, hazırda bu razılaşma qüvvədədir və Dəra əməliyyatında Hizbullah və iranlı təlimatçılar iştirak etmir. Həmin vaxt Liberman və Şoyqu arasında cənub əməliyyatı ilə bağlı anlaşma olub.

Suriya ordusu isə artıq İordaniya sərhədlərinə yaxınlaşır. Xeyli sayda insan döyüşlərin ortasında qalmamaq üçün cənuba - İordaniya ərazilərinə qaçır. Rəsmi Əmman isə daha artıq qaçqın qəbul etmənin riskini almamaq üçün sərhədləri bağlayıb. Silahlı qruplar hələlik müqavimət göstərirlər. Lakin sürətlə irəliləyən hökumət qüvvələrinin qarşısında müxaliflərin müqaviməti xeyli zəifdir. Lakin döyüş əməliyyatları ilə bağlı məlumatlardan da görünür ki, müxaliflər yaxşı silahlanıblar, müasir silah sistemlərinə malikdirlər.

Maraqlıdır ki, Suriyanın cənubunda İsraillə sərhəd bölgədə Tasil bölgəsi və eyni adlı şəhərcik İŞİD-in nəzarətindədir. Maraqlıdır ki, İsrail ötən illərdə sərhədində İŞİD-in qalmasına göz yumub. Hələlik Dəra ətrafında cəmləşən Suriya qüvvələrinin əsas hədəfi M-5 magistralı üzərindəki əraziləri azad edərək Suriya-İordaniya sərhədini nəzarətə götürməkdir. Bundan sonra isə qərbə doğru İsrail sərhədlərini nəzarətə götürməsi Bəşər Əsəd hökumətinin cənubda qələbəsi hesab olunacaq. Çünki Suriya müxalifətinə əsas xarici yardım iki ölkə üzərindən gəlib. Bunlardan birincisi şimalda Türkiyə, cənubda isə İordaniya olub. İordaniya və İsrail sərhədlərinin nəzarətə götürülməsi Suriya hökumətinə cənub "qapısını" bağlamaq şansı verir. Bu səbəbdən də hazırda şimal və şərq cəbhəsindən qüvvələri çəkərək cənuba toplayan Suriya hakimiyyəti cənubda nəzarəti tamamilə götürməyə çalışır.

Cənubdan sonra isə əsas mübarizə şimalda İdlib vilayəti, şimal-şərqdə isə kürdlər, yəni Suriya Demokratik Qüvvələri ilə olacaq. Xüsusən də SDQ rəsmi Dəməşq üçün hazırda ən ciddi problemlərdən birinə çevrilməkdədir. Vaşinqtonun kürdlərə açıq dəstək verməsi və kürdlərin muxtariyyət statusu tələbləri Dəməşq üçün başağrısına çevriləcək. Hələlik isə qüvvələr Dəra ətrafında ciddi döyüşlər aparır. Suriya hadisələrinin başladığı Dəra müharibənin sonu ola biləcəkmi?

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 141 (7030) 3 iyul 2018

# Qida təhlükəsizliyi sahibkarlar üçün təhlükəyə çevrilə bilər - iddia

## Ekspert: "Bu işi istehlakçıların özlərinə həvalə etmək lazımdır"

**İyulun 1-dən etibarən Azərbaycanda qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni, gigiyenik sertifikatlaşdırma işinin aparılması, o cümlədən xarici ölkələrə ixrac edilən qida məhsullarına keyfiyyət sertifikatının verilməsi, habelə qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsi sahəsində və "tarladan süfrəyədək" prinsipi əsasında məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətini Qida Təhlükəsizliyi Agentliyi (QTA) həyata keçirməyə başlayıb.**




Göründüyü kimi, yeni yaradılan quruma çox geniş səlahiyyətlər verilir. Bu, bir tərəfdən müsbət qiymətləndiriləcək bir addımdır. Belə ki, QTA yaradılanadək Azərbaycanda qida təhlükəsizliyi ilə bağlı nəzarəti 7-8 dövlət qurumu birgə həyata keçirirdi. Belə dağınıqlıq bu sahədə ciddi və keyfiyyətli işin ortaya qoyulmasına imkan vermirdi. Bu baxımdan, nəzarətin vahid bir qurumda cəmləşməsi işin müsbət tərəfidir. Lakin bir qurumun həm idxal-ixrac, həm istehsal, həm satış bazarında qida təhlükəsizliyinə effektiv nəzarəti təmin edə biləcəyi xeyli şübhələr doğurur. Digər tərəfdən, bir çox mənbələr hesab edirlər ki, QTA-nın tələb etdiyi yenidən qeydiyyat proseduru sahibkarlar üçün əlavə vaxt itkisinə gətirib çıxaracaq.

Xatırladaq ki, agentlik iyulun 1-dən qida zəncirinin bütün mərhələlərində iştirak edən sahibkarlıq subyektlərinin qeydiyyatının və dövlət reyestrinin aparılmasına start verib. "Yeni Müsavat"ın məlumatına görə, sahibkarlıq subyektlərinin qeydiyyatı və dövlət reyestrinin aparılması prosesi ilkin olaraq üç mərhələni əhatə edəcək. Belə ki, birinci mərhələdə (iyul-avqust ayları) qida məhsulları sahəsində fəaliyyət göstərən istehsal və təsərrüfat müəssisələrinin, ikinci mərhələdə (sentyabr-oktyabr ayları) qida məhsullarının istehlakçılara çatdırılmasında iştirak edən ticarət müəssisələri və satış məkəzlərinin, üçüncü mərhələdə isə (noyabr-dekabr ayları) qida zəncirində xidmət sahəsini əhatə edən ictimai iaşə obyektlərinin qeydiyyatının aparılması nəzərdə tutulub. Eyni zamanda bütün mərhələlərdə digər sahələr üzrə müraciət edən sahibkarlıq subyektlərinin də qeydiyyatının və dövlət reyestrinin aparılması həyata keçiriləcək.

Sahibkarlıq subyektlərinin qida təhlükəsizliyi üzrə qeydiyyatı "ASAN xidmət" mərkəzlərində və agentliyə ünvanlanmış müraciətlər əsasında həyata keçiriləcək.

**İqtisadçı-ekspert Natiq Cəfərli hesab edir ki, bir dövlət qurumunun qida zəncirinin bütün həlqələrində qida təhlükəsizliyini təmin etməsi mümkünsüzdür:** "Təkcə Bakı şəhərində 26 minədək satış nöqtəsi var. Onlarda həmçinin ictimai iaşə müəssisələri və digər yerlərdə prosesi nəzarətdə saxlamaq mümkün deyil. Hətta korrupsiya amili olmasa belə, bu proses sahibkarlar üçün əlavə vaxt itkisinə səbəb olacaq. Dünyada bu məsələyə nəzarəti istehlakçıların özünə veriblər. Yəni hamıdan çox sadə alıcı - vətəndaş maraqlıdır ki, təhlükəsiz, sağlam qida alsın. Burada müxtəlif yollarla vətəndaşları maarifləndirmək lazımdır ki, özləri nəzarət etsinlər. Bir problem aşkar etdikdə məhkəməyə müraciət etsinlər. ABŞ-da bununla bağlı oturuşmuş bir sistem var. Minlərlə hüquqşünas yalnız bu sahədə çalışır, müraciət edən vətəndaşların hüquqlarını müdafiə edirlər. Qanunvericilik, məhkəmə sistemi elə qurulub ki, vətəndaşın müraciəti əsasında böyük-böyük şirkətlər yüz milyonlarla dollar cərimələnə bilir. Bəzən vaxtı keçmiş 1 fincan qəhvəyə görə bir şirkət 2 milyon dollara yaxın kompensasiya ödəyəsi olur. Bu, həm vətəndaşda maraq, hətta maddi stimul yaradır ki, aldığı qidaların keyfiyyət parametrlərinə məsuliyyətlə yanaşsınlar, həm də şirkətləri vadar edir ki, keyfiyyətsiz malı satmasınlar, yaxud istehsal, idxal etməsinlər. Azərbaycanda da gec-tez bu sistem oturuşmalıdır. Effektiv vətəndaş nəzarəti olmasa, Azərbaycanda həyata keçirilən proseslər sahibkarlara, iş adamlarına əlavə problemlərin yaradılmasından uzağa gedə bilməyəcək. Nə qədər geniş səlahiyyət verilsə belə, bu, bir qurumun bacaracağı bir iş deyil. Mən qeydiyyat üçün tələb olunan sənədlərin siyahısına da baxmışam, sahibkarlar üçün əlavə resurs və vaxt itkisidir".

Maraqlı bir məqamı da qeyd edək ki, QTA-nın ilk diqqət ayırdığı məsələ - ət kəsiminin vahid mərkəzlərdə icra olunması da cəmiyyətdə birmənalı qarşılanmır. Bir çoxları hesab edirlər ki, QTA-nın bu istiqamətə xüsusi diqqət yetirməsinin arxasında kifayət qədər gəlirli bir sahə olan ət kəsimi və dağıtımını nəzarətə götürmək məqsədi dayanır.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Həbsxanadan qaçış planları: vertolyotla, iplə, qatarla qaçan məhbuslar

## Mahmud Hacıyev: "Azərbaycan həbsxanalarından qaçış faktı demək olar ki, yox dərəcəsindədir"

**Fransada barəsində 25 il həbs cəzası verilmiş məhbus Reduan Faid vertolyotla həbsxanadan qaçıb. Bu barədə "Parisien" qəzeti yazıb. Paris yaxınlığında Sena de Marna departamentində yerləşən həbsxanadan qaçan Faidə 3 nəfər silahlı şəxs yardım edib. Məhbus isə Belçikada qeydiyyatda olan vertolyot vasitəsilə qaçmağı bacarıb. Daha sonra vertolyot Paris yaxınlığında yandırılmış halda tapılıb.**



Vertolyotun pilotu girov götürülüb. Faid qadın polis əməkdaşının ölümü ilə nəticələnmiş qarət cəhdinə görə 25 illik həbs cəzasını çəkirdi. İndiki qaçış sayca onun həbsxanadan ikinci qaçışıdır.

2013-sü ildə o, həbsxanaya gətirildikdən yarım saat sonra qaça bilmişdi.

Həbsxanadan vertolyotla qaçış səhnələri bizə adətən filmlərdən tanışdır. Məşhur Türkiyə seriyalı "Kurtlar Vadisi"ndə belə bir epizodu izləmişdik. Kinoda "Halo" ləqəbi ilə tanınan Halil İbrahim polis vertolyotu ilə filmin baş qəhrəmanı Polad Ələmdar tərəfindən qaçırılmışdı. Əslində dünyada elə ilk dəfə vertolyotla həbsxanadan qaçan da türkdür və bəhs etdiyimiz filmdə də məhz onun prototipi canlandırılıb.

Belə ki, Türkiyənin "Hürriyet" qəzeti yazıb ki, Gaziantepspor sədrliyinə üzv olan Halil Havar 19 fevral 1991-ci ildə Hollandiyada saxlanıldığı həbsxanadan İtalya mafiyasının məşhur ailələrindən olan Trappanans tərəfindən vertolyotla qaçırılıb.

İki il ərzində gizlənməyi bacaran Havar 1992-ci ildə Türkiyədə tutulub. Ancaq prokurorluq tərəfindən sərbəst buraxıldığı zaman yenə ortalardan itib. 1994-cü ildə isə ələ keçirilərək, həbs olunub.

Tarixdə isə həbsxanadan müxtəlif və ağlagəlməz yollarla qaçan məhbuslar çox olub. Onların həyatı müxtəlif filmlərə çəkilib, detektiv romanlarda qeyd olunub.

Vertolyotla Fransada həbsxanadan qaçan məhbuslardan biri də Pascal Payetdir. Belə ki, o, ilk dəfə adam öldürərək, 30 il həbs cəzasına məhkum edilib. 2001-ci ildə özü həbsxanadan qaçdıqdan sonra 3 nəfər adamını da vertolyot vasitəsilə, həbsxanadan qaçırmağı bacarıb. Lakin qısa müddət sonra həm özü, həm də adamları təkrar həbs ediliblər. Pascal 2007-ci ildə yenidən eyni üsulla, vertolyotla həbsxanadan qaçıb. Bu dəfə isə onun izinə düşə bilməyiblər.

Həbsxanadan qeyri-adi qaçış üsullarından hələ 16-cı əsrdə Hugo Grotius adlı vəkil istifadə edib. O, orta əsr kilsə inanclarına qarşı çıxdığı üçün mühakimə olunaraq, həbs edilib. Həbsxanada bir müddət gözətçilərin hərəkətini izlədikdən sonra Hollandiyaya yola salınacaq 70 sm uzunluğunda, 40 sm yüksəklikdə və 50 sm genişlikdə olan kitab sandığına girərək qaçmağı bacarıb.

Dülgər Jack Sheppard Londanda saxlanıldığı həbsxanadan bir neçə dəfə qaçmağı bacarıb. O, ya yataq dəstindən ip düzəldib, ya qadın qılığına girib, yaxud da həbsxananın damına çıxaraq, azadlığına qovuşub. Bir dəfə isə o, həbsxananın damından atlanmaq istəyən zaman tutulub və Londonda xalqın qarşısında asılaraq, öldürülüb.

Bu cür faktların sayı onlarladır. Azərbaycan tarixindəki səs-küylü qaçış hekayələri az deyil. Bunlardan biri də eks müdafiə naziri Rəhim Qazıyevə məxsus olub. Laçın Alayının keçmiş komandiri Arif Paşa da 90-cı illərdə MTN təcridxanasından qaçan tanınmışlardan olub.

90-cı illərin ortalarında həbsxanada bir qrup şəxs qaçmağa cəhd etmişdi, bu zaman atışma da olmuşdu.

**"Yeni Müsavat"a danışan sabiq polis rəisi Mahmud Hacıyev bildirib ki, iki-üç siyasi xarakterli "qaçış"dan savayı, Azərbaycanda həbsxanadan qaçmaq hallarına rast gəlinməyib:**

"Həbsxananın özündən hansısa üsulla qaçmaq halı deyərdim ki, nə sovet dövründə, nə də indiki zamanda baş verməyib. Dövlətdən-dövlətə də bu məsələdə fərq var. Sovet dönəmində həbsxanadan kimsə qaçardısa belə, bu, ictimaiyyətdən gizli saxlanılırdı. Sovet dönəmində bir Kərimov soyadlı azərbaycanlı Rusiyanın xüsusi rejimli islah əmək koloniyasından qaçmışdı. O zaman bizə də tapşırıq gəlmişdi ki, ehtiyatlı olun, ora da gələ bilər. Həmin şəxsi tuta bilmirdilər. Çünki o, böyük cəsarət sahibi idi. Bu adam qaçan zaman hərəkət edən vaqonun bir təkərinin altından keçib, digər təkərin altından qarşı tərəfə çıxmışdı. Onun üstündə Rusiyada xeyli sayda adam işdən çıxarıldı. Kərimovun adı bir neçə ölüm işində keçirdi. Hətta müğənni Alla Puqaçovaya da sui-qəsdə cəhd etmişdi. Bütün bunları məxfi materialdan oxumuşam. Bu adamı tuta bilmirdilər. Nəhayət, əmr gəlmişdi ki, harada görsəniz vurun. Onu Rostov ətrafında silahlı müqavimət göstərən zaman vurub öldürmüşdülər. Kommunist ideologiyasının vaxtında həbsxanadan qaçanları çox da ictimailəşdirmirdilər. Yəni qaçanlar da yox dərəcəsində idi".

❑ **Əli RAİS**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 141 (7030) 3 iyul 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Düşmən təxribatlarına cavab: ölüm saçan sistemlər poliqonlara çıxarıldı

## Azərbaycan ordusu irimiqyaslı hərbi təlimlərə başladı; Nikol Paşinyan savaşa hazır olmaq tapşırığı verdi, İrəvan "Rus NATO-su"ndan dəstək gözləyir; **hərbi ekspert:** "Yaxın vaxtlarda Qarabağla bağlı konkretlik gözlənilir..."

**Bir müddət öncə Qarabağ danışıqlarında iştirak etməyə hazır olduğunu deyərək prezident Armen Sərkisyandan önə çıxmağa cəhd edən Ermənistanın baş naziri Nikol Paşinyan ardınca fərqli mövqedən çıxış edib. O, Ermənistanı Qarabağda istənilən ssenariyə hazır olmağa çağırıb.**

Virtualaz.org Ermənistan KİV-lərinə istinadən xəbər verir ki, erməni jurnalistlərlə görüşdə Paşinyan Ermənistan-Azərbaycan sərhədində növbəti gərginliyi belə şərh edib. "Biz artıq demişdik ki, sərhədə (? - E.P.) toplaşıblar, Azərbaycanın bəyanatlarına görə, irimiqyaslı təlimlər keçiriləcək. Güman edirəm ki, silahlı qüvvələrimiz istənilən inkişaf ssenarisinə hazır olmalıdırlar və mən belə əmr vermişəm" - baş nazir deyib. Onun sözlərinə görə, son günlər Azərbaycan sərhədə canlı qüvvə və hərbi texnika cəmləyir.

Ermənistan hökumət başçısı həmçinin bildirib ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistan-Azərbaycan sərhədində mühəndis və möhkəmləndirmə işləri aparmağa cəhd edir.

Paşinyan bu bəyanatı ilə ölkəsinin təcavüzkar olduğunu bir daha, rəsmən təsdiq edir. Əgər Serj Sərkisyan iqtidarı davamlı şəkildə Qarabağı zəbt edənlərin Dağlıq Qarabağ erməniləri olduğunu iddia edirdisə, yeni hökumət gizlətməyə ehtiyac görməyərək Ermənistanın işğalçı sifətinin açılması üçün "yardım" göstərir. Ancaq maraqlısı budur ki, həmsədr ölkələr, beynəlxalq təşkilatlar Paşinyanın bu mövqeyini eşitməzliyə vurmaqda davam edirlər.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən iyulun 2-də Azərbaycan ordusunun müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı təlimləri başlayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, təlimlərə 20.000 nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dən artıq müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 30-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub. İyulun 6-dək davam edəcək təlimlərdə döyüş əməliyyatlarının aparılmasının müasir təcrübəsi nəzərə alınmaqla qoşunlar müxtəlif növ qoşun əməliyyatlarının keçirilməsi, o cümlədən şərti düşmənə yüksək dəqiqlikli silah sistemlərinin etibarlı raket, artilleriya, bomba-hücum, eləcə də aviasiya və pilotsuz uçuş aparatları (PUA) ilə atəş zərbələrinin endirilməsi, həmçinin genişmiqyaslı hücum əməliyyatının keçirilməsi ilə işğal edilmiş ərazilərin azad edilməsi üzrə tapşırıqları yerinə yetirəcək.

Təbii ki, Azərbaycan ordusunun Bakıdakı hərbi paradın ardınca genişmiqyaslı təlimlərə başlaması düşməni vahiməyə salır. Odur ki, Ermənistan var qüvvəsi ilə "Rus NATO-su" adlanan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT), xüsusilə də Rusiyadan dəstək almaq üçün cəhdlər göstərməkdədir. Xüsusilə də düşmənin Naxçıvan istiqamətindən gərginliyi tətikləməsi bu niyyətə xidmət edir.

Qeyd edək ki, Ermənistanın Müdafiə Nazirliyinin mətbuat katibi Artsurun Ovanisyan Azərbaycan ordusunun bölmələrinin Naxçıvan istiqamətində mühəndis işlərinin qarşısının alınması üçün Ermənistan silahlı qüvvələrinin atəş açdığını iddia edib. Bu zaman ordumuzun postlarından birinin "dağıldığı", ancaq atışma zamanı 1974-cü ildə anadan olmuş erməni hərbi qulluqçu Vahan Baqdasaryanın da "yüngül yaralandığı" bildirilib. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidməti Ermənistanla dövlət sərhədinin Naxçıvan istiqamətində atışma barədə bu ölkənin Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Artsurun Ovanisyanın yaydığı məlumata münasibət bildirib. Müdafiə Nazirliyi virtualaz.org saytının sorğusuna cavab olaraq bildirib ki, Artsurun Ovanisyan özünün sosial şəbəkə hesabında Naxçıvan istiqamətində mühəndis və mövqelərin möhkəmləndirilməsi işləri görən Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinə atəş açılması, bu zaman bir erməni hərbi qulluqçunun "yüngül yaralanması" barədə məlumat yayıb. "Bununla bağlı bildiririk ki, dövlət sərhədinin Naxçıvan istiqamətində bu gün (ötən gün-red.) heç bir atışma qeydə alınmayıb, erməni tərəfinin iddia etdiyinin əksinə olaraq ordumuzun bölmələri mühəndis işlərini davam etdirir və strateji yüksəkliklərdə yerləşən yeni mövqelərini möhkəmləndirir. Ermənistan ordusunun hərbi qulluqçusunun yaralanması ilə Azərbaycan tərəfinin heç bir bağlılığı yoxdur. İstisna deyil ki, bu, Ermənistan ordusundakı nizamnamədən kənar münasibətlərin növbəti təzahürüdür. Görünür, Ermənistan Müdafiə Nazirliyində bu cür məlumat yaymaqla Naxçıvan Əlahiddə Ümumqoşun Birləşməsinin may ayında keçirdiyi uğurlu əməliyyata görə yaranmış pərtlikdən yeni çıxış yolu tapmağa çalışırlar".

Xatırladaq ki, Azərbaycan ordusunun Naxçıvan Əlahiddə Ümumqoşun Birləşməsinin aprel-may aylarında keçirdiyi əməliyyat nəticəsində 11 min hektara yaxın ərazi düşmən nəzarətindən çıxarılıb, ordumuz Ermənistanla sərhəddə yeni strateji yüksəkliklərdə möhkəmlənib. Əvvəlcə Ermənistan Müdafiə Nazirliyi Naxçıvan istiqamətində Azərbaycan ordusunun irəliləməsini israrla təkzib edib, daha sonra fakt təsdiqlənib, ancaq deyilib ki, Ermənistan ordusu "vəziyyətə nəzarət etməkdədir". Daha sonra Artsurun Ovanisyan Azərbaycan ordusunun Naxçıvan istiqamətində irəliləməsinə görə azərbaycanlı çobanların təhlükə altında qaldığını demişdi.

İrəvan bunun ardınca Azərbaycan postunda "yanğının olması" barədə iddiasına uyğun olaraq görüntülər də yayıb. Şübhəsiz ki, bütün bunlarla Ermənistan hakimiyyəti həm daxilə mesaj verir, həm də himayədarlarından havayı dəstəyin artırılmasını təmənna edir.

Elə Ermənistan XİN-in mətbuat katibi Tiqran Balayanın 2 iyul brifinqində dedikləri də təxminlərimizi təsdiqləyir. O bildirib ki, KTMT-dəki həmkarlarını Azərbaycanın Naxçıvan istiqamətindəki hərəkətləri barədə məlumatlandırıblar.

Ermənistan XİN-in sözçüsü iddia edib ki, Naxçıvan istiqamətində müşahidə olunan proseslərin Dağlıq Qarabağla əlaqəsi yoxdur. Bununla da o, himayədarlarına Ermənistanın təhlükədə olması mesajını vermiş olub. Ancaq eyni məntiqlə Dağlıq Qarabağda baş verənlərin də Ermənistana heç bir aidiyyəti yoxdur və olmamalıdır. Amma Ermənistan hakimiyyəti burnunu Azərbaycanın bu ərazilərinə soxaraq, söz sahibi kimi çıxış etməyə cəhd göstərir. Üstəlik, bu günlərdə Ermənistan ordusu işğal altındakı ərazilərdə hərbi təlimlər keçirdi. Balayan iddia edib ki, KTMT-dəkilərin kabineti ilə Ermənistan sərhədi arasında məsafə "çox yaxındır". Odur ki, bazar günü olmasına baxmayaraq, onlar məlumatlandırılıb.

Bu arada Naxçıvan Televiziyasının yaydığı kadrlardan bəlli olur ki, Ermənistan silahlı qüvvələri ötən günlərdə həqiqətən Azərbaycan ordusunun erməni nəzarəti altından çıxarılmış Günnüt kəndi istiqamətindəki postlarının yerləşdiyi sahələrdə yanğınlar törədib. Lakin alışdırıcı güllələrin köməyi ilə başladılan yanğın küləyin istiqamətini dəyişməsi nəticəsində Ermənistan ərazisinə keçib. Və Vaytsdozor əyalətinin Areni kəndinin ətrafında ermənilərə məxsus dəmyə taxıl sahələrində güclü yanğına səbəb olub. Habelə Ermənistan ordusunun postlarının yerləşdiyi əraziləri də yanğın bürüyüb.

Ermənistan tərəf hələ də anlamaq istəmir ki, KTMT-dəki ölkələr, o cümlədən Rusiya Azərbaycanı müttəfiq ölkə olaraq dəyərləndirir və onunla üz-üzə gəlmək, münasibətləri pozmaq istəmir. Elə Rusiyadan gəlmiş bir qrup ekspertin iştirakı ilə aprel döyüşlərində işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində tədbirin keçirilməsi, Ermənistana yönəlik müsajların verilməsi, Rusiya-Azərbaycan dostluğundan bəhs olunması işğalçı ölkəyə tutarlı cavabdır.

N.Paşinyanın müharibəyə hazırlıqla bağlı bəyanatının fonunda Ermənistan XİN-in ehtiyatlı davranışı diqqət çəkir.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov qəzetimizə dedi ki, heç bir ciddi siyasi-hərbi savadı olmayan Ermənistan rəhbərliyi bir-birinin ardınca ziddiyyətli və çox qəribə bəyanatlar verməkdə davam edir:** "Heç üç ay tamam olmayıb, bu küçə adamı olan baş nazir Nikol Paşinyan Qarabağla bağlı o qədər ziddiyyətli, biri digərini təkzib edən bəyanatlar, fikirlər səsləndirib ki, siyasətlə azca maraqlanan istənilən adam bunu hiss edir. Bakıda 26 iyun Silahlı Qüvvələr günü ilə əlaqədar keçirilmiş hərbi paraddan heç bir neçə dəqiqə keçməmiş, o, İrəvandan bəyan etdi ki, ölkəsi müharibə istəmir. Dünən isə Azərbaycanın 20 min şəxsi heyətin iştirakı ilə 5 gün davam edəcək genişmiqyaslı təlimlərlə bağlı xalqına müraciət edib ki, müharibə hazırlığına başlasınlar. Adama deyərlər ki, sənin özgə torpağında nə işin var ki, bu qədər çaş-baş vəziyyətdəsən?"

**Ü.Cəfərov qeyd etdi ki, əslində Azərbaycan da müharibə istəmir:** "Amma bir şərtlə ki, Ermənistan və onun havadarları tez bir zamanda işğal altında qalan ərazilərimizi tezliklə boşaltsınlar və öz xarabalarına rədd olub getsinlər. Yox, əgər onlar hələ də ümid edirlər ki, guya bundan sonra da bir bu qədər Azərbaycan dövləti onların həyasızlığına, özbaşınalığına dözəcək, çox ciddi yanılırlar. Bütün şərtlər və şərait bütövlükdə bizim üçün kifayət qədər əlverişlidir və inanıram ki, onlar məcbur qalıb bir qədər ağıl işlədəcəklər. Olmayacaqsa, sözsüz ki, müharibə riski kifayət qədər yüksəkdir. Amma indiki vəziyyətdə ermənilərin hamısı gözəl başa düşür ki, müharibə olması faktiki onlar üçün çox ağır nəticələr verəcək. Həm işğalçı kimi ciddi cəzalanacaqlar, həm də daxildə hakimiyyətlərinə son qoyulacaq. Ona görə də daha çox öz havadarlarına bir növ səslənmiş kimi başa düşülməlidir onların bu narahatçılığı və həyəcanı. Həm də Rusiya tərəfi hələ ki imkan verməz ki, öz vassalları çox cızığından çıxsın. Onlar son vaxtlar çox çalışırlar ki, Ermənistanın indiki təcrübəsiz rəhbərliyini də əvvəlkilər kimi özündən tam asılı vəziyyətə salsınlar. Bəzən vəziyyəti bilərəkdən gərginləşdirməklə də ruslar öz forpostlarını bir növ qorxu-hürkü içində saxlamağı düşünürlər. Nə olur-olsun, yaxın vaxtlarda Qarabağla bağlı konkretlik olması gözləniləndir. Hamı səbirsizliklə o anı və günü gözləyir".

Britaniyalı jurnalist və yazar, Karnegi Beynəlxalq Sülh Fondunun təhlilçisi, Qafqaz, xüsusilə Qarabağ münaqişəsi üzrə mütəxəssis Tomas de Vaal axar.az-a müsahibəsində deyib ki, Paşinyan Rusiyanın təsirini azaltmağa və digər xarici aktyorların, xüsusən də diasporların təsirini artırmağa çalışacaq. "O, bunu müəyyən həddə qədər edəcək, çünki Azərbaycanla münaqişəni və yaxınlıqdakı Türkiyəni nəzərə alacaq" - ekspert əlavə edib.

Hadisələrin necə cərəyan edəcəyini demək çox çətindir. Qızmar yayda cəbhə xəttində də hərarətin yüksəlməsi hər an dəhşətli hadisələrə səbəb ola bilər. Azərbaycan ordusu 2 iyul tarixində poliqonlara ölüm saçan yeni raket qurğularını çıxarıb. Təlimlərə silahlanmaya yeni qəbul edilmiş "Polonez" uzaq mənzilli yaylım atəşli reaktiv sistemləri və İsrail istehsallı "LORA" operativ-taktiki raket kompleksləri də cəlb olunub. Düşmənə ciddi mesajdır...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 141 (7030) 3 iyul 2018

# İraq Suriya ilə sərhəddə xəndək qazır, məftil hasar çəkir

## İŞİD-in son aylarda hücumlarının sayının artması Bağdadı hərəkətə gətirib

**ABŞ koalisiyasının İraq Hizbullahı qüvvələrini bombalaması Bağdadda sərt reaksiya doğurub. İraq Hizbullahı bəyan edib ki, İraq-Suriya sərhədinə əlavə qüvvələr göndərəcəklər. Qruplaşmanın sözçüsü Cəfər əl-Hüseyni deyib ki, ABŞ hərbi hava qüvvələrinin İraq qüvvələrini hədəfə almasına sərt cavab veriləcək. Eyni zamanda o, Amerika qüvvələrinə qarşı Livan Hizbullahı ilə birlikdə olacaqlarını deyib.**



Qeyd edək ki, Livan Hizbullahının lideri Seyid Həsən Nəsrullah özü də bəyan edib ki, Hizbullah İraq silahlı müqavimət qruplarının yanındadır. Son zamanlar İraq-Suriya sərhədində İŞİD-ə qarşı silahlı toqquşmalar intensivləşib. Koalisiya qüvvələrinin İŞİD-lə savaşan İraq silahlı birliklərini vurması Amerika əleyhinə çağırışları artırıb. Belə ki, ötən ilin sonlarında İraq hökuməti ölkə ərazisində İŞİD-in tamamilə məğlub edildiyini elan etsə də, hazırda Ənbar əyalətində geniş bir ərazi İŞİD-in nəzarəti altındadır. Bundan başqa, bir neçə gün əvvəl Kərkükdə bəzi nöqtələrə həyata keçirilən hücumlarda İŞİD-din adı hallanır.

İraqın nüfuzlu din xadimi və siyasətçisi Əmmar əl-Həkim Kərkükdə, eləcə də Diyala və Səlahəddin əyalətlərində baş verən terror aktlarından narahat olduqlarını bildirib və İŞİD-in yenidən İraqda fəallaşmağa çalışmasının bir işarəsi olduğunu qeyd edib. Eyni zamanda o, iraqlı təhlükəsizlik qüvvələrinə xəbərdarlıq edərək terror hücumlarına qarşı daha ayıq və diqqətli olmağa çağırıb.

İŞİD silahlıları İraq-Suriya sərhədlərində xeyli dərəcədə fəallaşıb və xüsusən də əl-Qaim şəhəri istiqamətində tez-tez İraq ərazilərinə hücumlar həyata keçirir. Rəsmi Bağdad isə İŞİD hücumlarının qarşısını almaq üçün Suriya ilə sərhədə məftil hasar çəkməyə başlayıb. Suriya-İraq sərhədində 6 metr dərinliyində xəndəklər qazılacaq və gözətçi qüllələri inşa ediləcək. BBC-nin məlumatına görə, Ənbar əyalətinin polis sözçüsü Ənvər Hamid Nayif bildirib ki, sərhəddə təhlükəsizlik hasarı və gözətçi qüllələrinin inşası prosesi 10 gündür başlayıb.

Suriya və İraq arasındakı sərhəd xəttinin uzunluğu 595 kilometrdir. Artıq 19 kilometrlik hissədə məftil hasar və xəndək çəkilib. Bundan başqa, sərhəddə məftil hasar, xəndək və gözətçi qüllələri ilə yanaşı termal kameralar və dronlardan istifadə olunacaq. Qeyd etdiyimiz kimi, İŞİD hazırda Suriya ilə sərhədə yaxın Ənbar vilayətində çöllük ərazidə varlığını qoruyub saxlayır. Ancaq eyni zamanda Bağdad da daxil olmaqla, bir sıra bölgələrdə İŞİD-in gizli hücrələrinin olduğu güman edilir. Çünki İŞİD-in yox edildiyi elan olunduqdan sonra da bir sıra gizli sui-qəsdlər baş verib. Ən son Kərkükdəki toqquşmalar və eləcə də Əbubəkr əl-Bağdadinin hələ də Ənbarda gizlənmiş olması bu qruplaşmanın hələ də varlığını qoruyub saxladığını göstərir.

Eyni zamanda Suriyanın İraq sərhədinə yaxın bölgələri, Deyr əz-Zor vilayətində İŞİD-in nəzarət etdiyi bölgələr var. Məhz sərhədin qorunmamasından istifadə edərək İŞİD silahlıları tez-tez yer dəyişə bilir. Bu isə İraq qüvvələri üçün ciddi təhlükə yaradır. Bu həm də bir mənada İŞİD-i İraq və Suriyada parçalamaq, vahid qüvvə kimi hərəkət etməsinin qarşısını almaq məqsədi daşıyır. Çünki sərhədlər ciddi qorunduqdan sonra İŞİD-in İraqdan Suriyaya və ya əks istiqamətdə qüvvə göndərməsi, sürətli əməliyyatlar təşkil etməsi asan olmayacaq, əksinə, parçalanacaq və mövqeləri zəifləyəcək.

Lakin maraqlıdır ki, bundan bir qədər əvvəl də ABŞ-ın dəstəyi ilə Türkiyə və Suriya arasındakı 900 kilometrlik sərhəddə beton divar tikilməsi başlamışdı. Bu layihənin bir qismi həyata keçirilib. İndi isə 600 kilometrə yaxın İraq-Suriya sərhədi, belə demək mümkündürsə, qapanacaq. Bununla da tədricən Suriya qonşuları tərəfindən qapalı ölkəyə çevriləcək.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Türkiyə Amerikanı ikiyə "böldü"...

## Nəzakət Məmmədova: "ABŞ güclü Ərdoğanla razılaşmalıdır"

**ABŞ hökuməti Türkiyə ilə son illərdə yaşanan gərginliyi aradan qaldırmaq istəyir. Regionda rəsmi Ankara ilə əməkdaşlıq etmədən heç bir konkret addım ata bilməyəcəyi həqiqətini görən Birləşmiş Ştatlar münasibətlərdə yaşanan problemləri daha da böyütmədən, hər hansı bir şəkildə bunu həll etməyin yollarını axtarır.**



Bu barədə strateq.az məlumat verib. Həmin məlumatda qeyd olunur ki, Senatın Xarici yardımlar komitəsində şahid kimi dindirilən xarici işlər naziri Mayk Pompeo, senatorların Türkiyə haqqındakı müxtəlif suallarına cavab verərkən Konqreslə hökumət arasında dərində mövcud olan ziddiyyətlər ortaya çıxıb.

F-35-lərin Türkiyəyə satılmasına qadağa qoyulması üçün iki ayrı təklifin müəllifi olan senatorlar Janna Şahin və Kris Van Hollenin suallarına Pompeonun verdiyi cavablar hökumətin Türkiyə haqqında necə bir daxili ziddiyyət yaşadığını ortaya qoyub. Mayk Pompeo Türkiyə ilə bağlı tərəddüdlərini ortaya qoyan senatorların təsbitlərinə qatılsa belə, hökumət problemlərin üstünə gedərək, Türkiyəni ABŞ-dan daha da uzaqlaşdırmaq istəmir.

Konqresdə hökumətin bu yanaşmasına qatılaraq, Türkiyə ilə birgə necə irəli gediləcəyinə dair daha məqbul yol müəyyən etmək istəyənlər olsa da, xüsusilə yevangelist seçicilərin təsiri altında olan üzvlər bu orta yolu istəmirlər və mövcud problemlərin daha da üstünə gedən sərt mövqelər tutulmasına çalışırlar. Pompeo komitədəki bütün çıxışında kompromisə və problemləri müzakirə edərək, qarşılıqlı anlayış içində həll etməyə yönəlik mövqe nümayiş etdirib. Hökumət xüsusilə Putinlə Tramp arasında keçiriləcək zirvə görüşü sonrası Suriyada bir siyasi həll çərçivəsi cızılmasının zamanının gələcəyini düşündüyü üçün kürdlərlə necə hərəkət ediləcəyi modelinin Türkiyə ilə razılaşma yolu ilə formalaşdırılmasına tərəfdardır.

Komitədəki senatorlar isə Türkiyə ilə razılaşma axtarışının "kürdlərin tərk edilməsi" mənasına gəlib-gəlmədiyini soruşublar. Pompeo Fərat çayının şərqinə xas regional etnik bölgülər nəzərə alınaraq, Türkiyə ilə ortaq bəzi nizamlamalara gedilməsinin kürdlərin tərk edilməsi mənasına gəlməyəcəyini söyləyib.

Görünən odur ki, hökumət, Konqresi də qarşısına almadan, Türkiyə ilə çıxılan ortaq yol xəritəsinin bölgədəki yerli ehtiyaclara ən yaxşı cavabı verəcəyini düşünür, lakin bu son dərəcə həssas balansları ehtiva edən siyasətin tətbiq edilməsində necə hərəkət ediləcəyi, xüsusilə Konqreslə necə razılaşacağı məsələsində, hələ ki, dəqiq bir fikri yoxdur.

Ancaq bir kompromis məcburiyyətinin qəbul edilməsinin uzun zamandan bəri kilidlənmiş durumda olan Türkiyə-ABŞ münasibətlərinin yenidən canlanması mənasına gələcəyini söyləyən mütəxəssislər də var.

Ekspertlərin Türkiyə-ABŞ barışığının əldə olunub-olunmayacağı ilə bağlı mövqeləri fərqlidir.

**Politoloq Nəzakət Məmmədova Amerikada hökumətlə Konqres arasında daim bu cür gərginliklərin yaşandığını söylədi:** "Konqres və Ağ Ev arasında daima çəkişmə, fikir ayrılığı, ziddiyyət, xüsusilə xarici siyasətə dair fərqli mövqelər ortaya qoyulub və bu, Amerika demokratiyasının şərtləndirən əsas amillərdən hesab olunur. Təbii ki, indi də həm prezidentə, həm də Konqresə təsir mexanizmləri mövcuddur ki, bunlardan da biri lobbiçilik fəaliyyətidir. Konqresdə müəyyən konqresmenlərlə sövdələşməyə getməklə bir çox qərarların qəbul edilməsinə nail olmaq olar. Türkiyəyə gəlincə, bu məsələdə bir çox yerli və xarici ölkələrin diaspora təşkilatları hazırda onun əleyhinə ABŞ-da, xüsusilə Konqresdə aktiv lobbiçilik fəaliyyəti aparırlar. Bunların arasında yəhudi, ərəb, erməni, yunan diasporlarının adlarını çəkə bilərəm ki, onlar ABŞ-da ən güclü lobbiçilik işi aparan təşkilatlardır. Türkiyəyə qarşı silah satışına qadağa da onların fəaliyyətinin nəticəsidir. Üstəlik də bəzi din pərdəsi altında maskalanmış dini cərəyanlar, xüsusilə FETÖ və yevangelist təşkilatları da Türkiyə əleyhinə olduqca ciddi iş aparırlar. Bu barədə Türkiyə prezidenti Ərdoğan özü də daima çıxışlarında vurğulayır. Onların əsas məqsədi Türkiyəni yenidən ABŞ-ın nüfuz dairəsinə qaytarmaq, onun İsraillə əlaqələrinin bərpa edilməsinə nail olmaq, Yaxın Şərqdə Qərbin forpostuna çevirməkdir. Eyni zamanda Türkiyənin ABŞ-ın Yaxın Şərqdə formalaşdırmaq istədiyi yeni dünya düzəninə müqavimətini minimuma endirməkdir. Türkiyəyə qarşı istənilən təzyiqlərin, o cümlədən Konqresdə son silah satışı qadağası qərarının arxasında bu məqsəd dayanır. Lakin Ağ Ev Administrasiyası şəxsən prezident Tramp və onun komandası Türkiyə ilə yaxşı münasibətlərə tərəfdar kimi görünür. Onlar Konqres, Mərkəzi Kəşfiyyat İdarəsi və Pentaqondan fərqli olaraq daha mülayim xətt tərəfdarı olmaqla, Türkiyə ilə barışıq və razılaşma yolu ilə yenidən münasibətlərin tərəfdarı kimi çıxış edirlər. Xatırladaq ki, prezident Tramp Güləni təhvil verməklə, eləcə də YPG/PYD/PKK-ya silah göndərilməsini dayandırmaq məsələsinə baxa biləcəyini prezident Ərdoğana hələ xeyli əvvəl vəd vermişdi. Lakin daxildəki bir çox qüvvələrin ciddi müqaviməti ilə rastlaşmışdı və impiçment təhdidi altında geri çəkilmişdi. Hətta komandasının bir neçə sadiq üzvünü istefaya göndərməyə məcbur olmuşdu. İndi isə Tramp komandası seçkilərdən sonra səlahiyyətləri artırılmış və mövqeləri xeyli güclənmiş Ərdoğanla işləmək məcburiyyətində qaldığını görərək Konqreslə bu barədə razılığa gəlmək istəyir. Ağ Ev və eləcə də Dövlət Departamenti Konqresi Türkiyəni kimi çox dəyərli müttəfiqi itirməmək üçün onunla razılığa gəlməyə inandırmağa çalışsa da, Konqres buna etiraz edir. Görünən odur ki, Konqres Türkiyəni inandırmaq, qarşılıqlı güzəştlər yox, məcburetmə və təzyiq göstərməklə ABŞ-la yenidən razılaşmağa çalışır. Pompeonun Çavuşoğlu ilə gəldiyi razılıq və "Yol xəritəsi" Suriyada sülhə apara biləcək mühüm sənəddir. Lakin Konqres buna müqavimət göstərməklə qeyri-konstruktiv mövqe sərgiləmiş olur".

**Politoloq onu da vurğuladı ki, Konqres müxtəlif dini, etnik lobbi qruplarının təsiri altındadır:** "Orada Türkiyə tərəfdarları da var. Lakin onlar azlıq təşkil edir və qəbul olunan qərarlara müqavimət göstərə bilmirlər. Türkiyə əleyhinə olan qüvvələrin birlikdə götürülmüş qüvvəsi Türkiyənin dostlarının sayından daha çoxdur. Ona görə də prezident və komandası Türkiyənin də maraqlarını nəzərə almaqla çözüm planı təqdim etsələr də, müqavimətlə qarşılaşaraq geri çəkilməli olurlar. Bundan başqa, Türkiyənin özündə də, eləcə də müttəfiqləri arasında məsələn Rusiya kimi onun Amerika ilə yenidən yaxınlaşması əleyhdarları var. Əgər ABŞ Türkiyənin şərtlərini yerinə yetirsə, düşünürəm ki, bunlardan ən əsası onun ərazi bütövlüyünə təhdid yarada biləcək planlardan əl çəksə, terrorçulara dəstəyini dayandırsa, bu zaman iki ölkə arasında yenidən yaxınlaşma ola bilər. Bu zaman yəqin ki, Rusiya istəsə də buna mane ola bilməz. Əvvəla, Türkiyə və Rusiyanın müttəfiqliyi strateji deyil, taktiki səciyyə daşıyır, ABŞ-Türkiyə və NATO müttəfiqliyi isə strateji xarakterlidir. Digər tərəfdən isə ruslar və türklər arasında tarixi ədavətə dayanan bir münasibət olub. Hər iki dövlət imperiya keçmişinə və hazırda olduqları regionda lider dövlət statusuna iddialıdır. Bu da onların uzunmüddətli müttəfiqliyini istisna edir. Odur ki, ABŞ və Türkiyə yaxınlaşması olarsa, Rusiyanın buna mane ola biləcəyi inandırıcı görünmür. Türkiyənin Suriya danışıqlarında kürdlərə güzəşti inandırıcı görünmür. Türkiyənin kürdlərdən heç bir asılılığı yoxdur. Seçkilər bitib və Ərdoğana kürd seçicilərin səsi də lazım deyil. Digər tərəfdən Afrindən sonra hərbi üstünlük Türkiyənin əlindədir. ABŞ-la razılaşdırılmış "yol xəritəsi" də Türkiyənin diplomatik üstünlüyü və qələbəsi sayıla bilər. Türkiyənin kürdlərə güzəşt edəcəyi inandırıcı deyil. ABŞ güclü Ərdoğanla razılaşmalıdır. Pompeo da əslində Konqresə buna inandırmağa və onun razılığını almağa çalışır. Əks halda, Amerikanın regiondakı bütün digər planları da iflasa uğramağa davam edəcəkdir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 141 (7030) 3 iyul 2018



# Boğulan adamı necə xilas etməli...

## Batanı sudan kim çıxarsın - canı yanan, yoxsa təcrübəsi olan?

**Yay girəndən, dəniz mövsümü başlayan gündən boğulma hekayələrinin də sayı artmaqdadır. Daha çox içkili şəxslərin boğulması halları çoxluq təşkil edir. Amma bununla paralel səriştəsiz şəxslərin xilasetmə prosesində iştirak etməsi mənzərəni daha da faciələşdirir. Nəticədə xilas etməyə qoşulan şəxslər də özlərini qoruya bilmir və boğulurlar. Yəni üzməyi bacarmaq xilas etməyi bacarmaq demək deyil, eyni anlama gəlmir.**

**Suda boğulma - mərhələ-mərhələ, nələr baş verir?**

"Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alıb, suda boğulanlara yardım formaları barədə məlumatları nəzərə çatdırır.

Ümumiyyətlə, suda boğulmanın mərhələsi aşağıdakı şəkildədir:

*- Təəccüb və panika halında insan suya batdığı zaman şüurlu şəkildə nəfəsini tutur və su üzündə dərin nəfəs alır.*

*- Su altında nəfəs borusuna su girməsi ilə refleks olaraq nəfəsi tutulur.*

*- Qanda karbondioksit səviyyəsi yüksəlir və insan dərin nəfəs alır və su ağciyərə girir.*

*- Şüur itir, tənəffüs itir və ölüm meydana gəlir.*

Yazının bundan sonrakı hissəsində hamımızı maraqlandıran sualları cavablamaqla davam edək:

Üzə bilən biri boğula bilərmi? Bilsə də başqa bir səbəbdən boğulma yaşaya bilərikmi?

Suda boğulmalar əsasən üzə bilməyənlərin dərinliyini, dib quruluşunu bilmədikləri sularda sərinləmək istədikləri zaman baş verir. Amma üzmə bilənlər də axıntı, dibi palçıq olan zəminlərdə, travma, spirtli içki, dərmandan istifadə, suda riskli hərəkətlər və su idmanı qəzaları kimi səbəblərə görə suda boğula bilirlər.

Xüsusən də uşaqlarımızla bərabər suda olmalı və ya onları yaxından izləməliyik. Çünki onlar daha tez panikaya düşə, zərafat edərkən zərər görə bilirlər. Hovuzda üzəndə isə ya onların yanında olmalı, ya da yaxın məsafədən müşahidə etməliyik. Hovuzlardakı aksesuarlar, hovuz içi boşluqlar böyük təhlükəyə səbəb olur.

**Boğulma anında nə etməliyik?**

Suda boğulmaları 2 növdə dəyərləndirə bilərik.

Quru boğulma: ağciyərdə su yoxdur. Bu insanlarda qırtlaq spazm vəziyyətindədir. Ağciyərlərə nə su, nə də oksigen girə bilər.

Su udaraq boğulma. Boğulmaların böyük əksəriyyəti bu səbəblə baş verir. Ağciyərlərə dolan suyun miqdarı tənəffüsün dayanmasında ciddi faktordur.

Suda boğulmaqda olan insan üzməyi bacarsa belə, ilk olaraq xilasedici jilet, xilasedici halqa, ip kimi suda batmayan bir əşya atmalıyıq. Üzərək can qurtarmaq çətin məsələdir. Əgər bu sahədə hər hansı təhsil almamısınızsa, bu, müşkül deməkdir. Çünki boğulmaqda olan insan panika halında çırpınarkən bizim də boğulmağımıza səbəb ola bilər.

**Ən kritik saat 72 saatdır**

- Boğulma təhlükəsi keçirən insan sudan çıxarılınca, ağzından protez, taxma diş kimi yad əşyalar çıxarılmalı, sərt bir zəminə qoyulmalıdır.

- Baş geriyə yatırılıb, çənə qaldırılmalı, başın altına qatlanmış geyim əşyası və sair qoyulmalıdır.

- Bir əllə xilas edilmiş şəxsin alnına qoymalı, eyni əlin baş və işarət barmaqları ilə burun qapatılmalı, digər əl ilə ağız açılmalıdır.

- Qurtarıcı onun nəfəs almasına yardım etmək üçün süni nəfəs verir.

- Daha sonra ürək masajı etməlidir.

Boğulma hekayələrində şirin su-duzlu su fərqi varmı?

Var. Şirin suda ölüm 3-4 dəqiqədə baş tutur. Ağciyərlərdəki hava kisecikləri qapanaraq qanın oksigenləşməsinin qarşısını alır, qan oksigenləşmədən təkrar dövrana keçər. Şirin suyun faizi aşağı olduğu üçün damarlar tərəfindən əmilir, qanın həcmi artır və ürək çatışmazlığına düşməsinə səbəb olur.

Qanın əzələlərə oksigen daşıması pozulur. Duzlu suda isə ölüm 5-6 dəqiqədə gerçəkləşir.

**İkincili boğulma nədir?**

Xəstələr xilas edildikdən sonra 72 saat boyunca təqib olunmalıdır. Çünki ikinci boğulma deyə adlandırılan durum baş verir. Bu durum əsasən körpələrdə və ya uşaqlarda təhlükəlidir. Özəlliklə hovuz sularındakı kimyəvi maddələr, ağciyərlərdə qalan su zaman içində ağciyərlərin quruluşunu pozaraq vəzifələrini həyata keçirməsinə mane ola bilər.

Əgər uşaqda nəfəs alma çətinliyi, ağır öskürək, halsızlıq, yuxu sərsəmliyi fərq edərsək, mütləq həkimə aparmalıyıq. Eyni şəkildə suyun mikrobik quruluşu, udulan yosun parçacıqları zaman infeksiyaya və hava yolunun tıxanmasına da səbəb ola bilər.

**Batan şəxsi saçlarından, paltarının yaxalığından və qoltuqaltı nahiyəsindən tutmaq lazımdır**

Suda batanı xilas edərkən ehtiyatlı olmaq lazımdır. Belə ki, suda batan hər şeydən tutmağa cəhd etdiyi üçün o, xilas edəni də batıra bilər.

Batan şəxsə arxa tərəfdən yaxınlaşmaq, onu saçlarından, paltarının yaxalığından və ya qoltuqaltı nahiyəsindən tutaraq üzünü yuxarı çevirməklə onunla birlikdə sahilə tərəf üzmək lazımdır.

Batan şəxsin sifəti mütləq suyun səthindən yuxarıda olmalıdır.

Suda boğulma zamanı ilk tibbi yardım:

- dərhal "təcili yardım" çağırmaq;

- tibbi yardım göstərməzdən əvvəl zərərçəkənin əynindəki sıxıcı paltarları (qalstuk, kəmər və s.) çıxarmaq lazımdır;

- cəld hərəkətlə zərərçəkənin ağız boşluğunu barmağınızla və ya dəsmalla dəniz yosunlarından və digər yad cisimlərdən təmizləyin;

- sonra sağ dizinizi yerə qoyaraq, zərərçəkəni üzüaşağı və qarnı budunuza söykənməklə, dizdən bükülmüş sol ayağınızın üzərinə qoyun;

- əlinizlə onun kürəkləri arasındakı sahəyə güclü şəkildə təzyiq etməklə tənəffüs yollarından suyu xaric edin;

- sonra zərərçəkəni üzüyuxarı yerə uzadın, qusma başladığı halda onun boğulmaması üçün başını yana çevirin, nəfəs alıb-almamasını, ürəyinin döyünüb-döyünməməsini yoxlayın;

- əgər zərərçəkən nəfəs almırsa, yuxarıda göstərildiyi qaydada tənəffüs yollarından suyu xaric edən kimi, ona süni tənəffüs vermək lazımdır. Əgər zərərçəkənin ürəyi dayanıbsa, süni tənəffüs hərəkətləri ilə yanaşı ürəyin qapalı masajını da (bax, "Ürəyin xarici masajı" və "Süni tənəffüs") icra edin. Bu reanimasiya tədbirlərini həkim gələnədək davam etdirmək lazımdır. Zərərçəkəni tibb müəssisəsinə çatdırmaq imkanı olarsa, bunu dərhal etmək, reanimasiya tədbirlərini isə yolda olarkən davam etdirmək lazımdır.

Əgər zərərçəkən huşunu itirməmişdirsə, tənəffüs yollarından suyu xaric etdikdən sonra onun əynindəki yaş paltarları çıxarmaq, bədənini spirt və ya quru dəsmalla ovxalamaq, içməyə isti maye vermək, onu isti bir şeyə bürümək, ayaqlarını bir qədər qaldırmaq və dərhal xəstəxanaya çatdırmaq lazımdır. Zərərçəkənin vəziyyəti hətta yaxşı olsa da, o, mütləq həkim tərəfindən müayinə olunmalıdır.

Bütün bədbəxt hadisələrdə olduğu kimi, suda boğulmadan qorunmağın ən yaxşı üsulu onun profilaktikasıdır. Uşaqlardan söhbət getdiyi halda bu daha aktualdır! Kiçik uşaqları heç zaman su ilə doldurulmuş vannada təkbaşına qoymayın, hovuzda, dənizdə çimərkən onlara nəzarət edin və s.!

**Fövqəladə Hallar Nazirliyi nə məsləhət görür?**

Məsləhətlər sırasında yer alan məqamlardan biri də odur ki, ümumiyyətlə, boğulan insana üzüb arxadan yaxınlaşmaq lazımdır. Ən yaxşı üsul - insanı vurub gicəllətmək və saçlarından tutub çəkmək. Bunu etmək çətindir, çünki boğulan insan xilaskarın boynundan yapışır və bununla onu suda batıra bilər. Sonra bir əl ilə boynundan tutub və arxası üstə uzanan vəziyyətdə üzmək lazımdır. Sudan çıxardandan sonra batan insanı qarın tərəfi ilə dizinizin üstünə elə qoyun ki, başı aşağı sallansın. Belə edərkən siz suyu bədəndən asanlıqla çıxara bilərsiniz. Bundan sonra insanı arxası üstə uzandırıb, ona süni nəfəs və ürəyi masaj etmək lazımdır.

İndi isə keçək Fövqəladə Hallar Nazirliyinin rəsmi saytında yer alan məsləhətlərə. Saytda qeyd olunub ki, suda boğulan insanın xilası əsasən peşəkar xilasedicilərin öhdəsindən gəldiyi işdir. Suda batan insanı xilas edərkən xilasedicinin əsas görməli olduğu işlərin sırası belədir: suya girməli, batan insana yaxınlaşmalı, onu suyun altında aşkar etməli, özünün boğulmasına imkan verməməli, boğulan adamı tez bir zamanda sahilə çatdırıb ilk tibbi yardım göstərməlidir.

Suda batan insanı xilas edərkən özünüzü qorumaq və sahilə sağ-salamat çatmaq ən əsas işdir. Batan insana kömək edərkən sizin əsas məqsədiniz onu sahilə ən təhlükəsiz yolla çıxartmaqdır. Bu zaman şəraitə uyğun olaraq təhlükəsiz yolu seçin: imkan varsa sahildə qalın, boğulana əlinizi, taxta parçası, budaq və ya kəndir uzadın. Bu zaman çalışın ki, tarazlığınızı elə saxlayasınız ki, boğulan adam sizi suya çəkməsin. Ancaq tam şəkildə suya girmək zərurətinin yaranmasına əmin olduqdan sonra bunu edin. Boğulan insanı sudan çıxararkən çalışın ki, onun başı döş qəfəsindən aşağı olsun.

Sahilə çatdıqda isə təxirəsalınmaz şəkildə yardım göstərməyə çalışın. İlk tibbi yardımın göstərilmə ardıcıllığı boğulmanın növündən asılıdır. Bu iki cür olur: batan insan göy rəngdə və yaxud ikinci halda-ağ rəngdə olur.

Göy rəngdə boğulma növündə boğulan insan suda dərhal batmır, suyun üzərində qalmağa çalışır. Bu zaman nəfəs alarkən çox miqdarda su udur ki, bunun nəticəsində mədə dolur və buradan da ağciyərlərə keçir. Bu zaman hava çatışmazlığından bədən göyərməyə başlayır.

Bədəni ağaran adam isə suya düşən zaman həyatı üçün heç bir mübarizə aparmır və dərhal suyun dibinə gedir. Bu, əsasən qayıq və ya baydara çevrilən vaxt baş verir və insan da bu zaman panikanın təsiri altında suyun dibinə gedir. Soyuq su ilə təmas zamanı tənəffüs və ürəyin gözlənilmədən dayanması baş verə bilər. Bu zaman su ağciyərlərə düşmür.

Boğulan adamın bədəni göy rəngə çalırsa, təcili olaraq suyu onun tənəffüs yollarından çıxartmaq lazımdır. Bunun üçün bir dizinizi qatlayıb zərərçəkmişi diziniz üstə elə qoymalısınız ki, onun döş qəfəsinin aşağı hissəsi dizinizə söykənsin, baş və bədənin yuxarı hissəsi aşağıya doğru sallansın. Sonra isə bir əlinizlə onun ağzını açıb, o biri əlinizlə kürəyinə vurmalısınız. Bədənindən suyu çıxartdıqdan sonra onu kürəyi üstə çevirib düz bir yerdə uzatmaq lazımdır. Bint və ya əl dəsmalı ilə zərərçəkmişin ağız nahiyəsinin ətrafını qumdan təmizləyin. Reanimasiya tədbirlərini tətbiq edin, süni nəfəs verin, ürəyin qapalı masajını edin.

Boğulan insanın bədəni ağ rəngdə olduqda isə dərhal reanimasiya əməllərinə keçmək lazımdır. Soyuqdəyməyə qarşı profilaktik tədbir kimi isə yaş paltarı çıxartmaq, zərərçəkmişi isti paltarlara bükmək, isti su vermək lazımdır. Zərərçəkmiş özünə gəlib, yaxşı hiss etdiyini desə belə, xəstəxanaya müraciət etmək lazımdır.

**Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

**Məlum olduğu kimi, bu günlərdə müğənni Fədayə Laçın və digər 12 nəfərin istintaq prosesi başa çatıb, iş məhkəməyə verilib. Müğənninin vəkili Türkel Süleymanlının report.az saytına verdiyi məlumata görə, Fədayə Laçın artıq Bakı İstintaq Təcridxanasında cinayət işi ilə tanış olur. Vəkilin dediyinə görə sənətçi barəsində başqa ittiham irəli sürülməyib, o, özünü qismən təqsirli bilib.**

# Fədayə Laçının məhkəməsində sənət dostları iştirak edəcəkmi?

## Lalə Məmmədova: “Hətta günahı olsa belə, biz yenə ona dəstəyik”


Fədayə Laçın

“Fədayə həbs olunan gün də demişdim, əgər günahı varsa, qanun qarşısında cavab verəcək”. Bu sözləri müğənninin bacısı İlahə Fəda “Yeni Müsavat”a açıqlamasında deyib. İlahə Fəda bacısının tezliklə azadlığa qovuşacağına inandığını bildirib: “Onun saf ürəyindən istifadə ediblər. Fədayə, sadəcə, səhv, günah edib, amma cinayət törətməyib. Bildiyiniz kimi, artıq istintaq prosesi başa çatıb. Məhkəmə prosesinin nə zaman başlayacağını hələlik bilmirik”.

**İlahə Fəda bacısının vəziyyətindən də söz açıb:** “8 aydır ki, dörd divar arasında qalıb. Qanunun icazə verdiyi qədər onunla görüşməyə çalışırıq. Vəziyyəti yaxşıdır”.

**İlahə Fəda həmçinin qeyd edib ki, müğənninin sənət yoldaşları vaxtaşırı onun vəziyyəti ilə maraqlanır:** “Həmkarlarının demək olar ki, 50 faizi bizə zəng vurur, onunla maraqlanır. Təkcə sənət adamları deyil, sadə vətəndaşlar bizimlə əlaqə saxlayır, Fədayənin vəziyyəti ilə bağlı maraqlanırlar. Hətta ölkə xaricindən belə zəng vurub, onun vəziyyətini soruşurlar. Sosial şəbəkələrdə də xalqın ona sevgisini görürük”.

Maraqlıdır, bəs Fədayə Laçının sənət dostlarından kimlər onun məhkəməsində iştirak edib, dəstək olmağı düşünür?

Məsələ ilə bağlı ilk olaraq Fədayə Laçınla uzun illər duet ortağı olmuş, sənət yoldaşı Tacir Şahmalıoğlunun rəyini öyrənməyə çalışdıq. Lakin çoxsaylı zənglərimiz cavabsız qaldı.

**Fədayə Laçının həbs olunduğu gündən ona dəstək olan sənətçilər arasında birinci sırada olan əməkdar artist Lalə Məmmədova bu dəfə də həmkarının yanında olduğunu bildirdi:** “Bildiyiniz kimi, məsələ bizim məhkəmədə ona dəstək olub-olmayacağımızdan deyil, məhkəmə işini aparan hüquqşünaslardan asılıdır. Lakin biz sənət yoldaşları həmişə onun yanındayıq, hətta günahı olsa belə biz yenə ona dəstəyik. Biz hələ bilmirik nə baş verib. Lazım gələrsə məhkəməyə də gedib ona mənəvi dəstək olacağıq. Doğrudur, təcridxanaya yanına gedə bilməsək də, vaxtaşırı bacısı İlahə xanımla əlaqə saxlayıb Fədayənin vəziyyəti ilə maraqlanırıq. Həmçinin barəsində mətbuatda məlumat alırıq”.

**Müğənni Manaf Ağayev də hər zaman həmkarına dəstək olmağa hazır olduğunu bildirdi:** “Lazım gələrsə məhkəmədə iştirak etməyə, ona dəstək olmağa hazıram. Vaxtaşırı da bacısı İlahə xanımdan onun vəziyyətini soruşur, hal-əhval tuturam”.

**Əməkdar artist Nüşabə Ələsgərli isə həmkarının məhkəmə prosesində iştirak etmək istəmədiyini dedi:** “Mən hər zaman Fədayə Laçına dəstəyəm, çünki o? ilk növbədə qadın və anadır. Lakin məhkəmə prosesi olan zaman mən ölkə xaricində olacam. Amma ölkədə olsam belə məhkəmədə iştirak etmək istəmərəm. Çünki psixoloji durumum çox həssasdır. Könül açmayan mənzərəni görmək istəmirəm”. Nüşabə Ələsgərli həmkarının ailəsi ilə də əlaqə saxlamadığını etiraf edib.

Xatırladaq ki, bu ilin fevral ayında xalq artistləri Arif Babayev, Alim Qasımov, Mənsum İbrahimov, Aftandil İsrafilov, Zaur Rzayev, Rafiq Hüseynov (Rəmiş), Nazpəri Dostəliyeva, Səkinə İsmayılova, əməkdar artist İlqar Muradov prezident İlham Əliyevə və birinci vitse-prezident Mehriban Əliyevaya müraciət ünvanlayaraq F.Laçının sənət adamı kimi xidmətlərinin nəzərə alınıb bağışlanmasını istəmişdilər. Lakin onların bu müraciəti cavabsız qalmışdı.

Onu da xatırladaq ki, ötən il oktyabrın 23-də Bakıda məhbusların qaçması faktı ilə bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində başlanan cinayət işi üzrə Fədayə Məmmədova (Fədayə Laçın) təqsirləndirilən şəxs qismində cəlb olunaraq Nəsimi Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# Gənclərin geyimi və davranışına münasibət necə olmalıdır?

## Kulturoloq və psixoloq problem və ondan çıxış yolu haqda danışdılar

**Vaxtaşırı ictimaiyyətdə yaşlı nəslin gənc nəslin davranışlarını, geyimlərini bəyənmədiklərinin, qıcıqla qarşıladıqlarının şahidi oluruq. Bəzən bu qıcıq olaya da çevrilə bilir. Məsələn, bu günlərdə metro qatarında yaşlı bir qadınla şortik geyinən qızın arasında baş verən qalmaqalı misal göstərmək olar. Həmin olayda gənc qız geyiminə görə hücuma məruz qalmışdı.**



Ümumiyyətlə, bu bir faktdır ki, yaşlı nəsil əksər hallarda gənclərin geyimini, dinlədiyi musiqini, yaşayış tərzini bəyənmir. Gənclər isə yaşlı nəsli köhnə düşüncəli hesab edir, nəticədə ziddiyyətlər yaranır.

**Kulturoloq Aydın Xan Əbilov mövzu ilə bağlı “Yeni Müsavat”a danışdı:** “Əslində son dövrlərdə Azərbaycan əhalisinin və xüsusən də gənclərin geyimi ilə bağlı müəyyən yeniliklər məni çox sevindirir. Çünki orta, yaşlı nəslə nisbətən gənclər rəngli geyinməyə, geyimlərində Şərqin və Qərbin ən gözəl nümunələrini tətbiq etməyə çalışır. Bu, sevindirici haldır. Bildiyiniz kimi, sovet dövründə insanlar öz geyimlərində daha çox ağ-qara, boz, tünd rənglərdən istifadə edirdi. Bu da birbaşa ictimai düşüncəyə, psixologiyaya təsir edirdi. Çünki dünya psixoloqları da sübut edir ki, bir çox rənglər var ki, onlar insanların psixologiyasına təsir edə, hətta psixi xəstəlikləri kəskinləşdirə bilir.

Qeyd etdiyim ki, hər bir yeni geyim yaxşı tərəfləri olduğu kimi mənfi tərəflər də gətirir. Bəzən ictimai yerlərdə həddindən artıq açıq-saçıq geyimlərin şahidi oluruq. Belə ki, bir çox hallarda açıq-saçıq geyinən qızlara ətrafdakıların ikrah hissi baxdıqlarını görürük. Elə geyimlər var ki, onlar xarici ölkələrdə müəyyən sahənin insanlarına aiddir və yaxud bu tip insanlar bir-birini tanımaq üçün o cür açıq-saçıq geyinir. Xüsusən cinsi azlığın nümayəndələri, yüngül əxlaqlı qadın və kişilər və sair. Bəzən insanlar televiziya filmlərində gördükləri və yaxud xarici ölkələrdə yüngül əxlaqlı qadınların geyimini görüb özlərində tətbiq etmək istəyir. Lakin geyimlər, davranışlar hər zaman toplumun ümumi şərtlərinə uyğun olmalıdır, mentalitet dəyərlər gözlənilməlidir.

Məsələn, Polşada qısa ətəkli qadınlar işə gedə bilməz. Yəni bu, qeyri-rəsmi olaraq qadağan edilib. Bizdə isə bəzən toy, idman geyimində işə gedirlər. Və yaxud təmtəraqlı geyimdə ictimai nəqliyyatdan istifadə edən xanımlara rast gəlirik. Həmçinin gənclər nə gəldi geyinirlər. Bu gün çox dar paltar geyinən oğlanların sayı artıb. Bu haqda sual verəndə isə bildirirlər ki, “hamı geyinir, mən də geyinirəm”. Geyim mədəniyyəti, davranışlarla bağlı ictimaiyyətdə, mətbuatda maarifləndirici işlər aparılmalıdır".

**Psixoloq Azad İsazadə isə mövzuya bu cür şərh bildirdi:** “Biz adətən xoşlayırıq bizə aid olmayan işlərə qarışaq. Yəni gənclərin geyiminə onun ata-anası qərar verə bilər. Əgər valideyni gəncə, yeniyetmə açıq-saçıq geyimdə ictimaiyyətə çıxmağa icazə veribsə, mənim ona qarışmağım doğru deyil. Söhbət əlbəttə ki, biabırçılıqdan getmir. Əgər kiminsə hansısa gəncin müasir geyimi xoşuna gəlmirsə, bu problem ailənin problemidir.

Söhbət təkcə açıq-saçıqlıqdan getmir. Məgər az görürük ki, oğlanlar “şap-şap”da paytaxtın mərkəzi küçələrində gəzirlər? Əgər onlar üçün belə rahatdırsa, deməli, belə də gəzməlidirlər. Elə ölkələr var ki, orada mənəviyyat ofisi var. Məsələn, İranda belə bir ofislər var. Əgər hansısa qadının baş örtüyündə problem varsa, polis qadınlar buna müdaxilə edir.

Əgər hansısa geyim ölkəmizdə qadağan olunmayıbsa, bizim kimlərəsə nəsə söz deməyə ixtiyarımız yoxdur. Lakin bəzən elə eybəcərlikləri görürük, həmin geyimlər heç də gənclərə yaraşmır, əksinə, pis görünür. Və yaxud gənc qızlar bəzən elə makiyaj, saç düzümü edirlər, onlara yaraşmır. Lakin həmin insana, onun ailəsinə bu xoş gələ bilər və başqasının bu məsələyə müdaxilə etməsi doğru deyil".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**



# Kolumbìya üçün “ölüm-qalım” oyunu









## İsveç və İsveçrə innliləri münasibətlərini aydınlaşdıracaq; Kolumbiya isə İngiltərəni məğlub etmək iddiasındadır

**Bu gün futbol üzrə XXI dünya çempionatında son 1/8 qarşılaşmaları olacaq. Saat 18:00-da İsveç və İsveçrə millləri münasibətlərini aydınlaşdıracaq. Saat 22:00-da isə Kolumbiya və İngiltərə qarşılaşması başlayacaq.**

**Skandinaviya derbisi**

İsveç və İsveçrə millilərinin beynəlxalq arenada qarşılaşmasının tarixi 1920-ci ildən başlayır. Həmin yoldaşlıq görüşündə İsveçrə rəqib meydanda minimal hesabla qalib gəlib.

Bu milli komandalar indiyədək 28 dəfə rəqib olublar. Bu oyunların 10-da İsveç, 11 qarşılaşmada isə rəqibləri üstün olublar. 7 görüşdə isə qalib müəyyənləşməyib. Sonuncu dəfə 2012-ci ildə keçirdikləri yoldaşlıq görüşündə sülhlə ayrılıblar (1:2).

İsveç və İsveçrə mundiallarda ilk dəfədir qarşılaşırlar. Bundan əvvəl isə bir neçə dəfə Avropa çempionatlarının seçmə mərhələlərində üz-üzə gəliblər.

İsveç məlumdur ki, 12-ci dəfədir mundiallarda iştirak edir. Ən yaxşı nəticələri isə 1958-ci ildə dünya ikincisi olmaqdır. Komandanın mundiala da “pley-off” mərhələsindən gəldiyini xatırlatmağın yeri var. Yan Anderssonun komandası İtaliya ilə iki görüşün nəticəsinə görə Rusiyaya vəsiqə qazandı. Yeri gəlmişkən, İtaliyanın dünya çempionatdan kənar qalmasına indi təəssüflənmirəm. Çünki bu komanda da Rusiyada Almaniya, Polşa, İspaniya və Argentina kimi yarıyolda qalacaqdır. Ziyanın yarısından qayıtdılar...

İsveç mundiala öz səviyyələrində yaxşı hazırlaşıblar. Mundialda F qrupunda mübarizə aparan İsveç millisi yalnız artırma dəqiqələrində buraxdığı qolla Almaniyaya məğlub olub. Cənubi Koreya (1:0) və Meksika (3:0) ilə qarşılaşmada isə qalib gələrək qrup lideri olub. DÇ başlayanda bu qrupda İsveçin birinci yer tutacağını demək ciddi qəbul edilməzdi...

İsveçrənin beynəlxalq futbol arenasında xüsusi uğuru olmayıb. Yalnız uzaq 1954-cü ildə komanda mundialın 1/4 mərhələsinə vəsiqə əldə edə bilib. İsveçrə bu mundialda Braziliyadan sonra qrupda 5 xalla 2-ci yeri tutub. Braziliya ilə ilk oyunda milli komanda əzmkar heç-heçəyə nail oldu. Serbiyaya qalib gələn (2:1) skandinaviyalılar son oyunda Kosta-Rika ilə xalları böldülər (2:2).

Hər iki komandanın yaxşı fiziki hazırlığı olduğunu oyunçuların meydanda qət etdiyi məsafə də göstərir. Statistikaya görə, İsveç millisinin oyunçuları üç görüşdə 317 kilometr məsafə qət ediblər. Hər görüşdə təxminən 107 km. İsveçrə futbolçuları isə meydanda 323 km məsafə qaçıb. Təxminən hər görüşdə 109 km...

Hər iki komandanın heyətində ulduz futbolçu yoxdur. Amma heyətdə Almaniya, Fransa və İtaliya klublarının oyunçuları var. Avro-2016-da İsveç qrupdan çıxa bilmədi. Bundan sonra komandanın ulduz futbolçusu Zlatan İbrahimoviç millidəki karyerasını bitirdi. Mundialda Zlatan komandası haqda tikanlı danışdı. “Mən tək bütün komandadan yaxşı oynayaram” kimi... Amma İsveç millisi qrupda ilk yeri tutdu və bu gün qələbəni də bayram edə bilərlər.

Bu gün hər iki komandanın şansı yarıbayarıdır. Ola bilsin, bizi parlaq oyun görməyək. Bukmeykerlər hətta matçın taleyinin penaltilərin həll edə biləcəyini proqnozlaşdırırlar...

**Kolumbiya asan təslim olmayacaq**

Kolumbiya və İngiltərə milliləri indiyədək 5 dəfə qarşılaşıblar. Bu matçların 3-də ingilislər qələbə qazanıb, 2 görüş heç-heçə bitib. Bu görüşlərdən yalnız biri 1998-ci il dünya çempionatında olub. Bir qrupa düşən komandaların qarşılaşmasında ingilislər 2:0 qalib gəliblər.

Kolumbiya heç şübhəsiz 2014-cü il mundialındakı komanda deyil. Kolumbiya ilk görüşdə Yaponiyaya 1:2 uduzmaqla azarkeşlərini həyəcanlandırdı. İkinci oyunda isə Cənubi Amerika təmsilçiləri gözəl oyun nümayiş etdirərək Polşanın qapısından üç cavabsız top keçirdilər. Seneqalla oyunda isə yalnız oyunun başa çatmasına 15 dəqiqə qalmış qələbə topunu vuraraq qrupda lider oldular. Komandanın ulduz futbolçusu Xames Rodriqesin, eləcə də Radomir Falkaonun bu mundialda əvvəlki oyunu hələ ki alınmır. Seneqalla oyunda zədələnən Xames bu gün meydana çıxmaya bilər. Komandanın baş məşqçisi Xose Pekerman bu gün onlar üçün “ölüm-qalım” oyunu olduğunu deyib. Pekerman Kolumbiya millisinin tərkibində İngiltərədən də güclü oyunçuların olduğunu deyib.

İngiltərə gəncləşmiş komanda olaraq diqqət çəkir. Komanda məhsuldar oynayır. İlk oyunda Tunisə 2:1 qalib gələn komanda Panamanın qapısından 7 top keçirdilər. Mundialın ən məhsuldar oyunçusu da hələ ki 5 topla Harri Keyndir. İngilislərdə gənclərlə yanaşı təcrübəli oyunçular da var ki, onlar Primyer Liqanın ən yaxşı klublarında oynayırlar. Rahim Sterlinq (“Mançestr Siti”), Markuş Reşfold (“Mançestr Yunayted”), Denni Uelbek(“Arsenal”) və təbii ki, Harri Keyn (“Tottenhem”)...

Bu oyunda ingilislərin qələbəsi haqda daha çox proqnoz var. Kolumbiya isə bu gün “ölüm-qalım” deyibsə, asan təslim olmayacaq.

❑ **Nazim SABİROĞLU, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 141 (7030) 3 iyul 2018

# Gündə 3 stəkan qəhvə içsəniz...

Alimlərə görə, gündə 3 stəkan qəhvə içmək yaddaşsızlıq riskini azaldır. Türkiyənin “Milliyyet” qəzetinin xəbərinə görə, ölçülü miqdarda qəhvə içmək beyində alzheimera bağlı zəhərli toksonlərin yaranmasına mane olur. Mütəxəssislər illərdir qəhvənin sağlamlığa ziyanlı olub-olmadığını araşdırırlar. Bu yaxınlarda aparılan bir araşdırma isə sübut edib ki, qəhvə hamilə qadınların uşaqlarını itirməsinə və infarktlara səbəb olur. Bundan başqa, anksiyete, mədə yanması və menapozda görülən istilənmə hissi də kofe ucbatından baş verir. Amma yeni araşdırma digər bütün araşdırmaları da təhlil edərək, yeni bir nəticə ortaya çıxarıb. Bununla paralel, Avropanın ən böyük 6 qəhvə şirkətinin analizinə görə, qəhvə və parkinson və digər nevroloji xəstəliklərin də qarşısını alır.






## Adamın dəmiri çatmırsa....

Dəmir çatışmazlığı bir sıra xəstəliklərə səbəb olan problemdir. Ancaq yeni araşdırmalar göstərib ki, dəmir çatışmazlığından əziyyət çəkənlər köklüyə daha meyllidirlər. Üstəlik, onlar istəsələr də, arıqlaya bilmirlər. Yəni kök insanda dəmir əskikliyi varsa, o, nə qədər pəhriz saxlasa da, arıqlaya bilməyəcək. Çünki dəmir çatışmazlığı müəyyən hormonların nisbətinin pozulmasına səbəb olur ki, bu da kökəlməklə nəticələnir. Dəmir çatışmazlığı arıqlama prosesinin də qarşısını alır.

Dəmir çatışmazlığına daha çox böyümə çağındakı uşaqlarda, menstruasiya olan gənc qızlarda, hamilələrdə və uşaq əmizdirən analarda, həmçinin sağlam qidalanmayan insanlarda rast gəlinir.

Hər ay mütəmadi olaraq menstruasiya keçirənlər 1 ml. qanla 5 mg. dəmir itirirlər. Bu itirilən dəmir bərpa edilməlidir. Dəmir çatışmazlığından əziyyət çəkən insanlar tez-tez acırlar. Ona görə də arıqlaya bilmir, hətta gün keçdikcə daha da kökəlirlər. Ən pisi isə odur ki, belə insanlar pəhriz saxlasalar, təhlükəli xəstəliklərə yaxalana bilərlər.

Mütəxəssislər tez-tez acan və üşüyən insanların qan azlığı və dəmir çatışmazlığından şübhələnmələrini və həkimə müraciət etmələrini tövsiyə edirlər. Əgər arıqlaya bilməməyinizin səbəbi dəmir çatışmazlığıdırsa, o zaman bol miqdarda dəmir ehtiva edən qidalar yeyərək bu problemi kökündən həll etməlisiniz.

# Kök uşağı arıqlatmaq üçün bankaladılar

150 kilo ağırlığında olan və heç cür çəki verə bilməyən 11 yaşındakı çinli uşaq ənənəvi Çin tibbinin üsulları ilə arıqlayacağı açıqlanıb. Çinin Changchun şəhərindəki bir xəstəxanada müalicə olunan 11 yaşlı Li Hang aralarında “banka müalicəsi”, atəş terapiyası və akupunkturun da olduğu müxtəlif müalicələrdən keçirilib. Nadir rast gəlinən Prader-Villi sindromuna yaxalanan Hanq yeməkdən əl çəkə bilmir, öyrənməkdə çətinlik çəkir və sürətli kökəlmədən əziyyət çəkir. Çinin Harbin şəhərindən müalicə məqsədilə Changchundakı xəstəxanaya gətirilən balaca uşağa 3 yaşından bəri Prader-Willi sindromu diaqnozu qoyulub. Amma 4 yaşı olanda onun çəkisi 43 kiloya çatıb. Bu isə onun Çindəki eyni yaşlı uşaqlarla müqayisədə iki dəfə kök olması anlamına gəlir. Balaca uşağın 10-dan artıq problemi üzə çıxıb. Bunlar arasında şişmanlıq, yüksək qan təzyiqi, qaraciyər yağlanması kimi xəstəliklər də var. Hanq ötən mart ayında 167 kiloya çatanda isə ailəsi ona dieta tətbiq edib və idmana yazdırıb. Amma bu, hər hansı fayda verməyib. Mədəsindən də əməliyyat keçirən Hanq cərrahi müdaxilə nəticəsində 143 kiloya düşüb, amma qısa müddət sonra 150 kiloya qədər artıb. İki ay öncə xəstəxanada müalicə altına alınan Li Hangın keçən müddət ərzində 15 kilo verdiyi açıqlanıb.





## Keçi ac idi, dollar yedi

Hindistanda ac keçi sahibi olan fermerin kərpic almaq üçün saxladığı bir dəstə pulu yeyib. Bu barədə "Hindustan Times" xəbər verib. Fermer Sarveş Kumar Pal hamama girib və qapının dəstəyindən içində 66 min rupi (təxminən 1025 dollar) olan şalvarını asıb. O, yuyunduğu vaxt isə həmin şalvarı ac keçi tapıb. Hamamdan çıxana qədər keçi 960 dollara qədəri tam yeyib, qalanını isə istifadəsiz vəziyyətə qoyub. 4 mayda isə məlum oldu ki, Kolumbiya sakini 90 ədəd yüz dollarlıq yeyib ki, onu vətəndaş nikahında olduğu və ayrılmaq istədiyi həyat yoldaşı ilə paylaşmasın.

## Qoroskop




**QOÇ** - Gələcək planlarınızı reallaşdırmaq üçün etibar etdiyiniz təcrübəli insanlarla danışıqlar aparmağa dəyər. Amma gərək hər bir məsələdə ədalət prinsiplərini əsas tutasınız. Yeri gəlsə, risk də etmək olar.

**BUĞA** - İxtiyarınızda olan bu təqvimdən qeyri-adi nəsə gözləməyin. Bütün ciddi planları başqa vaxta saxlayın. Maddi durumunuzu yüksəltmək istəyirsinizsə, saat 15-17 aralığını seçin.

**ƏKİZLƏR** - Başınızda daima ziddiyyətli fikirlər olur, bəzən bu, hətta münasibətlərin pozulmasına da rəvac verir. Heç olmasa, bu gün obyektiv olun. İşlərinizə vicdanla yanaşın.

**XƏRÇƏNG** - Yaxın on gündə görəcəyiniz işlərin həllinə bu gündən start verməlisiniz. Lazım gəlsə, etibarlı tərəfdaşlarınızın köməyindən də yararlana bilərsiniz. Gün şüasından qorunun.

**ŞİR** - Həmkarlarınızla münasibətdə soyuqluq yaranmasını istəmirsinizsə, onların ədalətli mövqeyi ilə razılaşın. Vəzifələrinizə isə məsuliyyətlə yanaşın. Dənizə getmək və ya səyahətə çıxmaq olar.

**QIZ** - İndiki ağır zamanda dostlarla, qohumlarla münasibətlərə xələl gətirmək savablarınızı azalda bilər. Hər bir prosesə obyektiv yanaşın. Yalnız bu halda ulduzlar sizi uğurlara çatdıra bilər. Bu gün istirahətə də vaxt ayırın.

**TƏRƏZİ** - Proseslərin axarı sizi qane edəcək. Xırdaçılığa yol verməsəniz, dedi-qodudan, qeybətdən yayınsanız, istər fəaliyyətdə, istərsə də münasibətlər zəminində hər şey normal olacaq.

**ƏQRƏB** - Hər mənada uğurlu gün hesab etmək olar. Sadəcə olaraq günün nəbzini tutmağı bacarmalısınız. Yay istirahətinə başlamaq üçün çox münasibdir. Cibiniz boş deyilsə, hərəkətə keçin.

**OXATAN** - Təxminən saat 17-yə qədər yalnız adi, gündəlik işlərinizlə məşğul olun. Qeyri-adi və ya hər hansı risklərə yol verməyin. Bununla yanaşı səhhətinizə də fikir verməlisiniz.

**OĞLAQ** - Üzərinizə götürdüyünüz öhdəliklərə məsuliyyətlə yanaşın. Hər hansı səhlənkarlıq sizi gözdən sala bilər. Hər boş sözdən çılğınlaşmayın. Doğmalarınızla mütləq əlaqə saxlayın.

**SUTÖKƏN** - Qarşınızda duran vəzifələri ləyaqətlə yerinə yetirsəniz, qarşınızda duran təqvimdən razı qalacaqsınız. Bu gün şəxsi büdcənizi artırmaq üçün fəallaşmalısınız. Uzaq yola çıxmayın.

**BALIQLAR** - İlk növbədə ünsiyyət məsələlərində səbr nümayiş etdirin ki, ümumi ovqatınız yüksək olsun. Heç bir maliyyə sövdələşmələrində iştirak etməyin. İşlə bağlı vəziyyət normal olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ən qoca it-pişiklər bu ölkədə yaşayır



Yaponiyada it və pişiklərin uzunömürlülüyü tarixi rekord həddinə çatıb. Bu nəticəyə Tokio Universitetinin ekspertləri gəliblər. Məlum olub ki, ölkədəki itlərin orta ömür həddi 13.9, pişiklərinki isə 11.9 ildir. Heyvanlar peyvəndlər, yüksək qulluq və qidalanma sayəsində uzun yaşayırlar. “Bloomberg”in xəbərinə görə, Yaponiyada ev heyvanlarının sayı 19.8 milyondur. Bu, ölkədə 14 yaşa qədər olan uşaqların sayından (15.9 milyon) çoxdur. Ekspertlər qeyd edir ki, ölkədə uşaqlı ailələrin sayı azaldıqca heyvan saxlama faizi artır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100